AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 İYUL 2019-cu il CÜMƏ AXŞAMI № 154 (6481) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1379-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44; Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli, 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1534-VQD, 1538-VQD, 1549-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 03 may tarixli 1577-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə "290.3," rəqəmlərindən sonra "295.6, 295.7," rəqəmləri əlavə edilsin.

1.2. Aşağıdakı məzmunda 295.6-cı və 295.7-ci maddələr əlavə edilsin:

"295.6. Daşıyıcılar tərəfindən Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinlərinə dair "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların biletin bronlaşdırıldığı (satıldığı) vaxtdan dərhal sonra və hər bir halda hava gəmisinə minik başlayanadək müvafiq icra hakimiyyəti orqanına verilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

295.7. Daşıyıcılar tərəfindən Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisi ekipajının hər bir üzvünün vəzifəsi və ona dair "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların hava gəmisinin yola düşməsinə ən geci 24 saat qalmış, habelə hava gəmisinin ekipajının tərkibi dəyişdikdə, həmin məlumatlar dəyişiklik edildikdən dərhal sonra, lakin hər bir halda hava gəmisi yola düşənədək müvafiq icra hakimiyyəti orqanına verilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.".

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların daşıyıcılar tərəfindən verilməsi ilə bağlı müəyyən etdiyi qayda qüvvəyə mindikdən sonra yaranır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 13 iyun 2019-cu il.**

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.3.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

*3.1.* "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

*3.2.* Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirir.

**4.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 259, N 3, maddə 460, N 4, maddə 670, N 6, maddələr 1025, 1063, N 7, maddə 1272, N 9, maddə 1468, N 10, maddələr 1614, 1638; 2017, N 2, maddələr 176, 202, N 3, maddə 351, N 4, maddələr 530, 537, N 6, maddə 1101, N 7, maddələr 1314, 1346, N 8, maddə 1521, N 9, maddə 1637, N 10, maddələr 1788, 1798, N 11, maddələr 2003, 2027, N 12, maddələr 2290, 2320; 2018, N 1, maddə 36, N 2, maddələr 198, 201, N 3, maddələr 418, 428, 443, 445, N 5, maddələr 914, 918, 926, 955, N 6, maddələr 1225, 1234, N 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, N 8, maddələr 1678, 1697, N 9, maddə 1840, N 11, maddələr 2244, 2256, 2273, 2289, N 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, N 1, maddələr 52, 68, N 3, maddə 426; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 aprel tarixli 602 nömrəli, 15 aprel tarixli 630 nömrəli, 3 may tarixli 673 nömrəli, 16 may tarixli 694 nömrəli və 17 may tarixli 700 nömrəli fərmanları) 4.10-cu bəndində "88.1.2-ci maddəsində" sözləri "88.1.2-ci, 295.6-cı və 295.7-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 25 iyun 2019-cu il.**

## "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2019-cu il 15 aprel tarixli 641 nömrəli və "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 2019-cu il 15 aprel tarixli 643 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 12 (I kitab), maddə 2544) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.2.2-ci yarımbəndin 11.1-11.5-ci abzasları ləğv edilsin.

**2.** 7-ci hissə üzrə:

*2.1.* 7.8-ci və 7.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 7.8. | 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə |
| 7.9. | Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə |

2.2. aşağıdakı məzmunda 7.11 - 7.13-cü bəndlər əlavə edilsin:

| | |
|---|---|
| 7.11. | I dərəcə əlilliyi olan şəxslərə qulluq edən şəxslərə |
| 7.12. | sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə |
| 7.13. | müharibə veteranlarına |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 1 iyul 2019-cu il.**

# Generallar Bakıda görüşür: qlobal təhlükəsizlik və əməkdaşlıq imkanları

*Azərbaycan paytaxtında general T.Volters ilə general V.Gerasimov arasında aparılan danışıqlar ekspertlərin bir neçə aspektdə marağına səbəb olub. Dünyanın iki çox böyük hərbi gücünün Bakıda qlobal əhəmiyyətli məsələləri müzakirə etməsi adi hadisə deyil. Bu baxımdan ekspertlər ABŞ və Rusiyanın görüş yeri kimi məhz Bakını seçməsinin səbəbləri ilə bağlı müxtəlif analizlər aparırlar. Aydın olur ki, burada bir sıra faktorlar rol oynayır. Azərbaycan müstəqil dövlət kimi böyük nailiyyətlər əldə etməkdədir. Beynəlxalq aləmdə onun nüfuzu durmadan artır. Mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanın sabit ölkə və etibarlı tərəfdaş olması da dünya tərəfindən qəbul edilir. Bütün bunların fonunda Amerika və Rusiyanın mühüm məsələləri Bakıda müzakirə etmələri normal görünür. Həmin kontekstdə iki generalın Bakı görüşünün geosiyasi təsiri üzərində geniş dayanmağa ehtiyac görürük.*

### Ənənə: Bakı vacib beynəlxalq məsələlərin müzakirə məkanı kimi

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı general Tod Volters ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun növbəti görüşünün Bakıda keçirilməsi müəyyən mənada yaxşı bir ənənənin davamıdır. Artıq dördüncü dəfədir ki, bu növ görüşlər keçirilir. Tərəflərin məhz Bakını müzakirə yeri kimi seçməsi də təsadüfi sayılmır. Bu o deməkdir ki, ABŞ və Rusiya üçün ən uyğun məkan Azərbaycandır. Səbəbi haqqında müxtəlif fikirlər deyilir. Onların hər biri əhəmiyyətlidir. Çünki söhbət müstəqil dövlət quruculuğu kursuna dünyada olan münasibətdən gedir. Şübhə yoxdur ki, Amerika və Rusiya kimi qüdrətli dövlətlər danışıqlar üçün təsadüfi yer seçməzlər. Onlar daha çox




inandıqları, əmin olduqları, etibarlı saydıqları ölkədə danışıqlar aparardlar.

Cənubi Qafqazda məhz Azərbaycanın müzakirə məkanı kimi seçilməsi böyük məna daşıyır. Hər şeydən öncə, Azərbaycan müstəqil və dinamik inkişaf edən, daxili sabitliyə nail olmuş bir dövlətdir. Uzun müddətdir ki, Azərbaycan regionda bu sabitlik səviyyəsinə görə digər ölkələrdən fərqlənir. Daxili sabitlik sürətli islahatlarla müşayiət olunur. Bu iki faktor Azərbaycanı Cənubi Qafqazın geosiyasi qovşağına çevirib. Bunun əlamətləri əsasən beynəlxalq layihələrdə, irimiqyaslı tədbirlərdə və davamlı inkişafda özünü göstərir.

Beynəlxalq layihələr də başlıca olaraq enerji təhlükəsizliyi, regional və qlobal əməkdaşlıq, nəqliyyat dəhlizlərinin formalaşması və mədəniyyətlərarası dialoqun təşkili ilə əlaqəlidir. Bu, faktiki olaraq, Azərbaycanı bütün istiqamətlərdə Cənubi Qafqazın lider dövləti mövqeyinə çıxarıb. Hazırda burada istənilən mövzuda yüksək səviyyəli müzakirələr təşkil etmək mümkündür.

Nüfuzlu beynəlxalq tədbirlər kimi Azərbaycan sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqun təşkili ilə bağlı çox vacib mövzularda müzakirələr təşkil edir. İndi bütün dünya Bakı Beynəlxalq Humanitar Forumundan, "Bakı prosesi"ndən və başqa yeni tədbirlərdən bəhs edir. Hər kəs bilir ki, bu möhtəşəm layihələrin və uğurla təşkil edilən tədbirlərin təşəbbüskarı Azərbaycan rəhbərliyidir. Bunlara beynəlxalq idman yarışlarının təşkilini də əlavə etmək gərəkdir. Azərbaycan hər kəsə sübut edib ki, bu növ tədbirləri də yüksək səviyyədə keçirə bilir.

Nəqliyyat dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı aktiv rol ayrıca mövzudur. İndi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri reallaşır. Bu, yalnız yük daşımaq imkanı deyil, həm də mədəniyyətlərin, sivilizasiyaların dialoqunu, ünsiyyətini təşkil etmək deməkdir. Dünyanın onlarla ölkəsinin nümayəndələri bu dəhlizlər vasitəsilə təmasda olur və səmərəli fəaliyyət göstərirlər. Deməli, Azərbaycan çox sayda ölkələrin səmərəli və qarşılıqlı faydalı əməkdaşlığını ən yüksək səviyyədə təşkil edə bilir.

Bütün bunlarla yanaşı, Azərbaycan Cənubi Qafqazda əməkdaşlığın yeni formatları ilə bağlı ən çox təşəbbüs irəli sürən ölkədir. Prezident İlham Əliyevin ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıqla ilgili təklif və təşəbbüsləri artıq özünün yüksək səmərəsini göstərib. Bu baxımdan Bakının Rusiya-İran-Azərbaycan əməkdaşlıq formatını böyük uğurla reallaşdırması ekspertlərin diqqətini daha çox çəkib. Çünki tarixən Azərbaycan Rusiya və İranda imperiya dövründə onların tərkibində olub. İndi isə müstəqil dövlət kimi bu iki böyük dövlətin əməkdaşlığına yeni təkan verir. Bu mənada İlham Əliyevin əməkdaşlıq formatı təklifi son dərəcə böyük maraq doğurur və Azərbaycan dövlətinə etibarlılıq qazandırır.

### Geosiyasi kontekst: perspektivli proses

Əlbəttə, söhbət əməkdaşlıqdan düşərkən Türkiyə və Qərb istiqamətini unutmaq olmaz. Türkiyə Azərbaycana ən yaxın, qardaş dövlətdir. Onunla əməkdaşlıq avtomatik və aksiomatik bir işdir. Ancaq məsələ, eyni zamanda, müstəqil dövlət kimi qarşılıqlı faydalı və etibarlı əlaqələrin yaradılmasından gedir. Azərbaycan bu istiqamətdə də bir sıra müstəqil dövlətlər üçün səciyyəvi olan "böyük-kiçik qardaş" sindromunu aşmış ölkədir. İndi onun Türkiyə ilə sabit, bərabərhüquqlu, qarşılıqlı faydaya əsaslanan münasibətləri mövcuddur. Deməli, Azərbaycan özünün çox güclü qardaşı ilə belə əməkdaşlığını müstəqil dövlət kimi konstruktiv müstəvidə qura bilir.

Bu baxımdan Bakının dünyanın ən inkişaf etmiş hissəsi olan Qərb dövlətləri ilə münasibətləri çox maraqlıdır. Bu istiqamətdə Azərbaycan rəhbərliyinin yüksək nailiyyətlər əldə etdiyi danılmaz faktdır. İki məqam üzərində dayanaq. Əvvəla, Azərbaycan-ABŞ əlaqələri müasir beynəlxalq hüquq və konstruktiv əməkdaşlıq şərtlərinə tam uyğun inkişaf edir. Amerika Prezidentinin İlham Əliyevə ünvanladığı məktublarda həmin məqam aydın olaraq öz ifadəsini tapıb.

Donald Tramp Azərbaycanın etibarlı, perspektivli tərəfdaş olduğunu dəfələrlə vurğulayıb, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinə verdiyi töhfələri ayrıca qeyd edib, əlavə olaraq, daha geniş geosiyasi məkanda bu missiyanı reallaşdıra biləcəyini ifadə edib. Bu onu göstərir ki, Vaşinqton Azərbaycanın etibarlı, sabit və perspektivli müstəqil dövlət olduğunu, beynəlxalq təhlükəsizliyə qiymətli töhfələr verdiyini etiraf edir. Bu kontekstdə Azərbaycan Prezidentinin bir fikri çox maraqlıdır. İlham Əliyev ifadə edib: "Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik".

**(davamı 3-cü səhifədə)**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4, 25, 27, 28, 29, 30 noyabr, 1, 2 dekabr 2018-ci il, 11 yanvar, 5, 6, 7, 9 və 14 iyul 2019-cu il tarixli saylarımızda)*

### 20 yanvar 2019-cu il

- **Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.**

### 21 yanvar 2019-cu il

- **Meksika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Andres Manuel Lopes Obradora:** İdalqo ştatında boru kəmərində baş vermiş partlayış və yanğın nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri: Davosda Dünya İqtisadi Forumunun prezidenti ilə görüş.**




- **Prezident İlham Əliyev Davosda "Rossiya 1" televiziya kanalına müsahibə verib.**
- **Azərbaycan Prezidenti İlham Əliyev Davosda Çinin CGTN televiziyasına müsahibə verib.**

### 22 yanvar 2019-cu il

- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Davosda "Visa" şirkətinin prezidenti ilə görüş.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyev ilə BP qrupunun baş icraçı direktorunun görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev "CİSCO" şirkətinin icraçı vitse-prezidenti ilə görüşüb.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyevin "SAP SE" şirkətinin baş icraçı direktoru ilə görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev Dünya Bankının baş icraçı direktoru ilə görüşüb.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri Mamuka Baxtadzenin görüşü.



- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev Davosda "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada iştirak edib.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev Davosda Rusiyanın "LUKoil" şirkətinin prezidenti ilə görüşüb.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və "Total" şirkətinin baş icraçı direktorunun görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyev "Microsoft" şirkətinin vitse-prezidenti ilə görüşüb.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Davosda qeyri-rəsmi görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Prezident İlham Əliyevin "Signify" şirkətinin baş icraçı direktoru ilə görüşü olub.
- **Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri:** Azərbaycan Prezidenti İlham Əliyevin Çinin CGTN televiziyasına müsahibəsi.

***(davamı növbəti saylarımızda)***

# BMT Baş Assambleyasında Azərbaycanda həyata keçirilən sosial islahatlar barədə danışılıb

**Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov BMT Baş Assambleyasında əhali və inkişaf üzrə Qahirə konfransının 25 illiyi münasibətilə keçirilən yüksək səviyyəli iclasda çıxış edib.**



AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini 1994-cü ildə təşkil edilmiş Qahirə konfransının əhəmiyyətini vurğulayaraq konfransın həyata keçirilən təşəbbüslərin mərkəzində insanların rifahının ön planda olduğunu sübut etdiyini bildirib. Bununla yanaşı, o, ölkəmizdə həyata keçirilən sosial islahatlar çərçivəsində həyat səviyyəsinin yüksəldiyini, insan hüquq və bərabərliyinin təmin edildiyini, o cümlədən sosial xidmətlərə əlçatanlığın artırılması üçün kompleks tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Son 15 ildə Azərbaycanda 2 milyondan çox iş yerinin açıldığını, əməkhaqlarının və pensiyaların müvafiq olaraq bir neçə dəfə artırıldığını, əhalinin 1,6 milyon nəfər artaraq 10 milyona çatdığını vurğulayıb. Ötən dövr ərzində sosial infrastrukturun əhəmiyyətli dərəcədə yaxşılaşdırıldığını və yüzlərlə məktəb, tibb ocaqları və digər sosial obyektlərin inşa edildiyini diqqətə çatdırıb.

Baş Nazirin müavini, eyni zamanda, ölkəmizin gənclər və gender siyasətinə xüsusi önəm verdiyini və gənclərin, qadınların məşğulluğunun, o cümlədən onların ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyini bildirib.

Bununla yanaşı, Əli Əhmədov Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyini diqqətə çatdırıb.

Eyni zamanda, Baş Nazirin müavini Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində qısa müddət ərzində əhəmiyyətli işlərin görüldüyünü, DİM-lərin ölkə prioritetlərinə inteqrasiya edildiyini, habelə regionda və MDB məkanında ilk ölkə olaraq ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabatın təqdim olunduğunu qeyd edib.

**AZƏRTAC**

# Azərbaycan ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb





**Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-nin İnkişaf Proqramının (BMTİP) Baş direktoru Akim Stayner və onun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın BMT-nin İnkişaf Proqramı ilə ikitərəfli əməkdaşlığının genişləndirilməsi və birgə həyata keçirilən layihələrdə səmərəliliyin artırılması məqsədilə müzakirələr aparılıb. Azərbaycanın BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla davam etdiyini vurğulayan Baş Nazirin müavini 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını qeyd edib. O, ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri qlobal təşəbbüsünə qoşulması ilə bu təşkilatla əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb.

Azərbaycanda son dövrlərdə bütün sahələrdə inkişafın dayanıqlılığının təmin edilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verən Əli Əhmədov aparılan islahatlarda BMTİP ilə birgə icra olunan layihələrin mühüm önəm kəsb etdiyini bildirib. Eyni zamanda, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün strategiyalar və dövlət proqramlarının qlobal məqsədlərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.

Baş Nazirin müavini Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü və bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını bildirib.

BMT İnkişaf Proqramının Baş direktoru Azərbaycan Respublikasında aparılan sahəvi islahatları və Azərbaycanın DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. O, Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını qeyd edib, bütün bunları ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi həssas yanaşmanın bariz nümunəsi kimi dəyərləndirib.

BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin hökumətlə çox səmərəli əməkdaşlıq qurduğunu və bu əməkdaşlığın digər region ölkələri üçün nümunə ola biləcəyini qeyd edən Miryana Spolyariç Eqqer dayanıqlı inkişafa nail olunması istiqamətində həyata keçirilən layihələrdə BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

**AZƏRTAC**

# Azərbaycanın Norveç və İsrail ilə əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub



**Azərbaycanın Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Nyu-Yorkda Norveçin Beynəlxalq inkişaf naziri Daq İnqe Ulstein və İsrailin Ətraf mühitin mühafizəsi naziri, Təhlükəsizlik Şurasının üzvü Zeev Elkinil ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, norveçli nazirlə görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri, o cümlədən alternativ və bərpa olunan enerji mənbələrinin və enerji səmərəliliyinin artırılması istiqamətində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb. Bununla yanaşı, dayanıqlı inkişaf üzrə təqdim edilən Azərbaycanın ikinci Könüllü Milli Hesabatının yüksək səviyyədə hazırlandığı, inklüziv inkişaf və özəl sektorun prosesə cəlb edilməsi məsələlərinin hesabatda geniş işıqlandırılmasının təqdirəlayiq olduğu qeyd edilib.

İsrailli nazirlə görüşdə Əli Əhmədov İsrail-Azərbaycan münasibətlərinin inkişaf etdiyini deyib, bu uğurlu əlaqələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib. Zeev Elkinil Azərbaycan ilə İsrail arasında daim dostluq münasibətlərinin olduğunu, bu münasibətlərin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində yeni əməkdaşlıqlarla daha da möhkəmlənəcəyini diqqətə çatdırıb.



Nazir ölkələrimiz arasında təhsil, səhiyyə və digər istiqamətlərdə əməkdaşlığın davam etdiyini, növbəti illərdə su və su resurslarının səmərəli istifadəsi sahəsində Azərbaycanla əməkdaşlıq etməyə hazır olduqlarını söyləyib, bununla əlaqədar ölkəmizə səfər etmək niyyətini bildirib.

Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində Azərbaycanın uğurlu addımlar atdığı və bu sahədə ölkəmizin təcrübəsinin öyrənilməsinin vacibliyi qeyd edilib.

**AZƏRTAC**

# Baş prokuror Şabran və Xaçmaz rayonlarının sakinlərini qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Baş prokuror Zakir Qaralov iyulun 26-da saat 10:00-da Şabran Rayon Prokurorluğunun inzibati binasında Şabran və Xaçmaz rayonları sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Şabran rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən təşkil ediləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

**AZƏRTAC**

# "MeqaFon" Dağlıq Qarabağla bağlı yanlış informasiyaya görə daxili təhqiqat aparır

**Rusiyanın ən böyük mobil operatoru "MeqaFon" şirkəti öz saytında Dağlıq Qarabağ haqqında yerləşdirilmiş yanlış informasiya ilə bağlı daxili təhqiqat aparır.**

AZƏRTAC xəbər verir ki, bu barədə "MeqaFon"nun Direktorlar Şurasının sədri Yevgeni Bıstrıxın imzası ilə Azərbaycanın Rusiyadakı səfirliyinə daxil olmuş məktubda bildirilir.

Məktubun tam mətnini təqdim edirik: "Şirkətin saytının yenilənməsi zamanı Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibinə daxil olmayan müstəqil ərazi kimi təqdim edilməsi barədə yanlış informasiya aşkar edilib. Şirkətin menecmentinin bunu aşkar etməsindən sonra səhv məlumat dərhal düzəldilib.

Hazırda "MeqaFon" insidentlə bağlı daxili təhqiqat aparır. Bu məlumata görə, məsul olan əməkdaşlar vəzifələrinin icrasından uzaqlaşdırılıb və onlar Rusiya Federasiyasının Əmək Məcəlləsinə müvafiq olaraq intizam cəzası alacaqlar.

"MeqaFon"un əsas iş prinsiplərindən biri öz kommersiya fəaliyyətini siyasi və dini kontekstdən uzaq tutmaqdır. Biz baş verən hadisədən təəssüfləndiyimizi bildirir, təsdiq edirik ki, səhv bilərəkdən deyil və hər hansı qərəzli niyyət olmadan buraxılıb. Şirkət bu qərəzsiz insident nəticəsində hisslərinə toxunulmuş hər kəsdən üzr diləyir".

**AZƏRTAC**

# FHN-in İdman-Sağlamlıq Klubunun kompleksi XV Avropa Gənclər Olimpiya Festivalına hazırdır

**İyulun 21-27-də Bakıda təşkil olunacaq "EYOF 2019" XV Avropa Gənclər Olimpiya Festivalının voleybol yarışları iki arenada - Voleybol Mərkəzində və Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Klubunun kompleksində keçiriləcək. Kompleks artıq bu mötəbər idman yarışının keçirilməsinə hazırdır.**

FHN-dən AZƏRTAC-a bildiriblər ki, Gənclər və İdman naziri Azad Rəhimov və təşkilat komitəsinin nümayəndələri FHN-in İdman-Sağlamlıq Klubunun bazasına gələrək hazırlıq işləri ilə yaxından tanış olublar. Arenanın bu mötəbər yarışa hazırlıq səviyyəsi yüksək qiymətləndirilib.



Qeyd edək ki, FHN-in İdman-Sağlamlıq Klubunun kompleksi cəmi altı aydır fəaliyyət göstərməsinə baxmayaraq, bir sıra idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi edib. Avropa Gənclər Yay Olimpiya Festivalının proqramına daxil olan voleybol idman növünün FHN-in İdman-Sağlamlıq Klubunun kompleksində keçirilməsi bu arenanın ən müasir beynəlxalq standartlara cavab verməsinin göstəricisidir.

**AZƏRTAC**

# Azərbaycan Ordusunun erməni kəndini atəşə tutması barədə Ermənistan mətbuatının yaydığı məlumatlar əsassızdır

**Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası istiqamətində yerləşən bölmələri tərəfindən erməni kəndinin atəşə tutulması barədə Ermənistan mətbuatının yaydığı məlumatın heç bir əsası yoxdur. Bu məlumat yalandır və dezinformasiya xarakteri daşıyır.**

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər.

"Eyni zamanda bildiririk ki, bu gün səhər saatlarında Göygöl rayonu ərazisində təsərrüfat işləri görən mülki traktor Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən snayper atəşinə məruz qalıb, itki yoxdur. Cavab tədbirləri nəticəsində düşmən susdurulub", - deyə nazirliyin məlumatında bildirilib.

**AZƏRTAC**

# Avropa Şurasının nümayəndələri Azərbaycanda gender bərabərliyinin təmini ilə bağlı görülən işlər barədə məlumatlandırılıb

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova Avropa Şurasının gender bərabərliyi bölməsinin rəhbəri Katerina Boloqnesenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.**



Müvəkkil 2001-ci ildən Avropa Şurasının üzvü olan Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrası istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini, həmin öhdəliklərdən biri kimi ölkədə ilk Ombudsman təsisatının yaradıldığını, ötən müddət ərzində bu qurumun özünü səmərəli hüquq müdafiə mexanizmi kimi təsdiq etdiyini bildirib. O, həmçinin Ombudsman təsisatının regional və beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası ilə səmərəli əməkdaşlığı, insan hüquqları sahəsində birgə layihələrin həyata keçirilməsi barədə danışıb.

Müvəkkil gender bərabərliyinin təmin olunması məsələsinə mühüm diqqət yetirdiyini və əhalinin digər qruplarının hüquqları ilə yanaşı, qadın hüquqlarının daha etibarlı müdafiəsi və təbliği, o cümlədən onların ölkənin ictimai-siyasi həyatında iştirakının dəstəklənməsi, qadınlar və kişilər arasında bərabər imkanlara nail olunması istiqamətində davamlı, əhatəli və sistemli tədbirlər həyata keçirdiyini söyləyib. Diqqətə çatdırılıb ki, təhsilin gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsini təmin edən ən qiymətli vasitələrdən biri olduğunu nəzərə alaraq, ombudsmanın təşəbbüsü ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsində "İnsan hüquqları" və "Genderə giriş" fənləri tədris edilir, mühazirələr toplusu hazırlanıb. Azərbaycanın müxtəlif şəhər və rayonlarında salınmış məcburi köçkün qəsəbələrində minlərlə məcburi köçkünə təlimlər keçirilib. Müvəkkilin insan hüquqlarının səmərəli təmininə yönəlik 700-dək təklifi səlahiyyətli dövlət qurumlarına təqdim edilib, onların böyük əksəriyyəti artıq təmin olunub. İnsan hüquqlarının milli və beynəlxalq qanunvericiliyə uyğun müdafiəsi, bu istiqamətdə potensialın gücləndirilməsi, eləcə də ölkədə hüquqi təminat sisteminin müasir standartlarına uyğun inkişaf etdirilməsi və digər sahələrdə paytaxtda və regionlarda müntəzəm maarifləndirmə tədbirləri həyata keçirilib.

Müvəkkil qeyd edib ki, gender bərabərliyinin təmini, qadın və kişilər üçün bərabər imkanların yaradılması, qadınlara və uşaqlara qarşı zorakılığın qarşısının alınması, pozulmuş hüquqların aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir.

Qonaqlar müvəkkilin fəaliyyətini yüksək qiymətləndirib, Ombudsman təsisatı ilə əməkdaşlıqda maraqlı olduqlarını söyləyiblər.

**AZƏRTAC**

# Probasiya Xidmətində müşavirə keçirilib

**İyulun 17-də Ədliyyə Nazirliyində Probasiya Xidməti tərəfindən cari ilin birinci yarımilində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**



AZƏRTAC Ədliyyə Nazirliyinin saytına istinadla xəbər verir ki, tədbirdə çıxış edən Ədliyyə nazirinin müavini Vilayət Zahirov Azərbaycan Prezidenti İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq, həyata keçirilən tədbirlər barədə məlumat verib. V.Zahirov dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən, humanistləşdirmə tədbirlərinin davam etdirildiyini, o cümlədən cinayətlərin dekriminallaşdırılması ilə bağlı qanunvericiliyə dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib. Bildirib ki, bununla bağlı Fərmanda verilmiş tapşırıqların icrası ilə əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilib, bir çox əməllərin dekriminallaşdırılması, o cümlədən alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı qanun layihələri hazırlanıb və dövlətimizin başçısına təqdim edilib.

Müşavirədə Probasiya Xidmətinin rəisi - baş probasiya məmuru Akşin Ziyadov hesabat məruzəsi ilə çıxış edərək diqqətə çatdırıb ki, yerli probasiya qurumlarının qeydiyyatında olan məhkumlardan 4700-dən çox şəxs cari ildə cəza müddətinin başa çatması və qanunla müəyyən edilmiş digər əsaslarla qeydiyyatdan çıxarılıb. Cəzanın icrasından boyun qaçıran 384 məhkumun cəzası məhkəmələr tərəfindən digər cəza növü, o cümlədən 48 nəfərin cəzası azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib.

Həmçinin azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi genişlənərək bu ilin birinci yarımilində həmin cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 1100-ə yaxın şəxsə elektron qolbaq tətbiq edilib. Cəza müddəti bitən və digər qanuni əsaslara görə 300-dək məhkumdan isə qolbaqlar çıxarılıb. Hazırda 1400-dən artıq məhkum elektron qolbaq daşıyır.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq ictimai işlər növündə cəzanın icrasına effektiv nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər davam etdirilib. Bu sahədə işin daha səmərəli təşkili məqsədilə yeni qanun layihələri hazırlanıb, ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası işində innovativ texnologiyaların tətbiqi imkanları öyrənilib, bu məqsədlə ictimai işlərin yerinə yetirilməsi vəziyyətinin izlənilməsinə və cəza çəkməkdən yayınma hallarının dərhal aşkar olunmasına xidmət edən xüsusi monitorinq qurğusu hazırlanıb.

Bildirilib ki, birinci yarımildə məhkəmənin qərarlarına əsasən 966 şəxs ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına cəlb edilib, onlardan 431-i ictimai işlərin müddətinin başa çatması ilə əlaqədar qeydiyyatdan çıxarılıb. Cərimə və islah işləri cəzalarının icrası ilə bağlı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği 12 faiz artaraq 1,2 milyon manatdan çox olub.

İclasda görülmüş işlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd edilib, mövcud problemlərlə bağlı Probasiya Xidmətinin məsul işçiləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini azadlıqdan məhrumetməyə alternativ cəzaların vaxtında və dürüst icrasının təmin olunması, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, probasiya üzrə icra məmurlarının peşəkarlığının artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı konkret tapşırıqlar verib, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini vurğulayıb.

**AZƏRTAC**

# Generallar Bakıda görüşür: qlobal təhlükəsizlik və əməkdaşlıq imkanları

**(əvvəli 1-ci səhifədə)**

Nəhayət, Avropa İttifaqı ilə Azərbaycan arasında strateji əməkdaşlıq əlaqələri formalaşıb. Bu, təhlükəsizlik məsələlərini, beynəlxalq terrorla mübarizəni, enerji layihələrini əhatə edir. Brüssel Azərbaycana perspektivli tərəfdaş kimi baxır. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun regiona son səfəri zamanı ifadə etdiyi fikirlər bunu bir daha təsdiq edir.

Beləliklə, dünyanın iki böyük hərbi gücünün vacib və aktual qlobal məsələləri Bakıda müzakirə etməyə qərar verməsi səbəbsiz deyil. Azərbaycan bütün parametrlərinə görə bu cür yüksək səviyyəli müzakirələrə uyğun bir məkandır. Amerika və Rusiya generallarının Bakıda rəsmi şəxslərlə görüşləri zamanı ifadə etdikləri fikirlər bir daha sübut edir ki, bu dövlətlərin hərbi, təhlükəsizlik və müdafiə sahələrində Bakı ilə əməkdaşlığa maraqları az deyil. Hər iki ölkə bundan sonra da Azərbaycanla həmin istiqamətdə əlaqələri gücləndirmək niyyətindədir.

T.Volterslə V.Gerasimovun Bakıda Suriya, Əfqanıstan ixtilaflarını, beynəlxalq terror, qaçaqmalçılıq və digər aktual məsələlərlə bağlı apardıqları müzakirələr göstərir ki, tərəflər hazırda bütün dünya üçün əhəmiyyətli problemlərin nəzərdən keçirilməsində maraqlıdırlar. Bakı görüşü ayrıca göstərdi ki, hələ Vaşinqton və Moskva ortaq mövqeyə gələ bilmirlər. Lakin qlobal miqyasda aktual olan və dünyanın təhlükəsizliyi üçün əhəmiyyət daşıyan məsələlərin Bakıda müzakirə edilməsi konkret məna daşıyır.

Beləliklə, ABŞ və Rusiyanın Bakıda yüksək səviyyədə müzakirələr aparması Azərbaycanın beynəlxalq nüfuzunun getdikcə daha da artdığını nümayiş etdirir. Qərb və Rusiya üçün önəmli olan hərbi-müdafiə xarakterli mövzuların Azərbaycan paytaxtında müzakirə edilməsi həm də regional münaqişələrin ədalətli həlli üçün bir şansı ifadə edir. Bu cür görüşlərdə Azərbaycanın məsələyə münasibəti haqqında daha dolğun informasiyalar alan generallar, əlbəttə, həqiqəti bilməklə daha qətiyyətli mövqe tuta bilərlər. Xüsusilə onlar digər məsələlərlə yanaşı, həm də separatizm və terrorla mübarizəni də müzakirə edirlər.

Bunlar onu göstərir ki, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi beynəlxalq nüfuzunu sürətlə yüksəldir və daha etibarlı tərəfdaş kimi qəbul edilir. Bu keyfiyyətdə Azərbaycanın müxtəlif beynəlxalq proseslərdə iştirakı daha intensiv xarakter alır. Bu prosesin yeni səviyyəyə yüksəlməsi, əlbəttə, regionda bir sıra çətinliklərin aradan qaldırılmasına yardım edəcəkdir. İki generalın Bakıdakı son görüşünə bu prizmadan baxdıqda, onun növbəti mərhələnin başlanğıcı olduğu qənaəti yaranır. Yəni ABŞ-Rusiya münasibətlərində konstruktiv bir mərhələ başlaya bilər.

**Newtimes.az**

*Energetika*

# İlin birinci yarısı uğurla yekunlaşmışdır

**Respublika ərazisində istehlakçıların keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" ASC tərəfindən paylayıcı şəbəkələrində 2019-cu ilin 1-ci yarımilliyində təqdirəlayiq işlər görülmüşdür.**

Binəqədi rayonunun elektrik təchizatının yaxşılaşdırılması üçün 110/35/6 kV-luq "ETK-4" yarımstansiyası tam yenidən qurulmuş, yarımstansiyada 110 kV-luq açıq, 35 və 6 kV-luq qapalı paylayıcı qurğular yeni inşa edilərək eleqaz və vakuum tipli elektrik avadanlıqlarla təchiz olunmuş, 2x40 MVA gücündə transformator quraşdırılmış, qapalı paylayıcı qurğular 2 mərtəbəli binada yerləşdirməklə növbətçi personal üçün bütün lazımi şərait yaradılmışdır.

Xətai rayonunda 10/0,4 kV-luq 2x1600 kVA gücündə 276 saylı, 2x1000 kVA gücündə 3440 saylı, Yasamal rayonunda 6/0,4 kV-luq 2x1000 kVA gücündə 394 saylı, Nərimanov rayonunda 10/0,4 kV-luq 2x1000 kVA gücündə 456 saylı, Səbail rayonunda 10/0,4 kV-luq 2x1600 kVA gücündə 944 saylı, Yasamal rayonunda 10/0,4 kV-luq 2x1000 kVA gücündə 447 saylı yeni transformator məntəqələri inşa edilərək istismara verilmiş, Ağstafa rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Ağstafa", Biləsuvar rayonunda 110/35/10-6 kV-luq 2x25+10 MVA gücündə "Səmədabad", Ağdam rayonunda 110/10 kV-luq 16 MVA gücündə "Ergi" yarımstansiyaları əsaslı surətdə yenidən qurulmuşdur.



Beyləqan rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Beyləqan-1" yarımstansiyası tam şəkildə yenidən qurulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il fevralın 13-də yarımstansiyanın açılışında iştirak etmişdir.

İlin ötən 6 ayında istehlakçıların elektrik təchizatının yaxşılaşdırılması üçün Bakı şəhərində və regionlarda 77 ədəd komplekt transformator məntəqəsi quraşdırılmış, 25,8 km 110 kV-luq, 20,5 km 35 kV-luq, 187,6 km 10 və 6 kV-luq, 16,5 km 0,4 kV-luq, 1897,6 km 0,4 kV-luq ÖİN hava xətləri çəkilmiş və təmir olunmuş, 41,3 km 35 kV-luq, 157,6 km 10 kV-luq, 579,2 km 0,4 kV-luq kabel xətləri çəkilmiş, 41123 ədəd müxtəlif gərginlikli dayaqlar quraşdırılmışdır.

Cari ilin 1-ci yarımilliyində 68 ədəd 110 kV-luq, 156 ədəd 35 kV-luq, 1623 ədəd 10 və 6 kV-luq yarımstansiyalarda elektrik avadanlıqlarının, 46 km 110 kV-luq, 295 km 35 kV-luq, 880 km 10 və 6 kV-luq, 1000 km-ə yaxın 0,4 kV-luq elektrik veriliş xətlərinin texniki vəziyyəti yoxlanılmış, aşkar edilmiş nasazlıqlar aradan qaldırılmaqla təmir və sınaq işləri aparılmış, 82 ədəd 10 və 6 kV-luq transformator əsaslı təmir olunmuşdur.

Regionlarda elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi uçotunun dəqiq aparılması üçün istismar müddətini başa vurmuş 0,4 kV-luq elektrik şəbəkələrində yenidənqurma işləri aparılmış, bu işlər 46 rayonu, 64 kənd və qəsəbəni əhatə etməklə hesabat dövründə 6 kənd üzrə işlər yekunlaşmışdır. Həmin işlər çərçivəsində 20000 abonentin elektrik sayğacları və yaşayış evlərinin elektrik xətləri həyətyanı sahələrdən çıxarılmış, 38877 ədəd 0,4 kV-luq dayaq, 1920 km ÖİN xətləri çəkilmişdir.

6 ayda ümumilikdə 135040 ədəd olmaqla əhali istehlakçılarına aid 127010 ədəd, qeyri-əhali istehlakçılarına aid 8030 ədəd uçot dəstləri bərpa olunmuşdur. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinin həcmi 8571,2 mln kVtxsaat olmuş, ümumi yığım səviyyəsi 94,8 %-ə çatdırılmışdır.

Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyalarında 43,6 mln. kVt x saat elektrik enerjisi istehsal olunaraq elektrik şəbəkələrinə ötürülmüşdür.

"Azərişıq" ASC-də "ASAN Kommunal" Mərkəzləri vasitəsi ilə abunəçilərə göstərilən xidmətlərin dairəsi daha da genişləndirilmiş və hazırda istehlakçılara 16 növ xidmət göstərilir.

Respublikanın bütün istehlakçılarının fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir.

**Qədir ASLAN, "Respublika".**

*Sosial həyat*

## Dövlət Məşğulluq Xidməti 54 minə yaxın şəxsi işlə təmin edib

2019-cu ilin yanvar-iyun aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 53 943 nəfər işsiz və işaxtaran vətəndaş münasib işlə təmin olunub. Onlardan 18877-ni qadınlar təşkil edib.

Bu dövrdə gənclərin əmək bazarına çıxışının dəstəklənməsi, onların səmərəli məşğulluğuna şərait yaradılması işləri də davam etdirilib. Gənclərlə bağlı aktiv məşğulluq tədbirləri geniş miqyas alıb. Yanvar-iyun aylarında Xidmətin xətti ilə işlə təmin edilənlərdən 12148-i gənclər olub. Həmçinin cari ilin birinci yarımilində Dövlət Məşğulluq Xidməti tərəfindən məşğulluğu təmin edilən vətəndaşların 3171-ni məcburi köçkünlər, 1543-nü isə əlilliyi olan şəxslər təşkil edib.

## Əmək Müfəttişliyi Xidməti 77 işçini əvvəlki işlərinə bərpa etdirib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2019-cu ilin birinci yarımilində vətəndaş müraciətlərinin araşdırılması zamanı 77 işçinin əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini müəyyən edib. Xidmətin qanunvericiliyə uyğun olaraq gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar.

Vətəndaşların bir qisminin Xidmətə müraciətlərində isə onlara sosial xarakterli ödənişlərin verilməsinin gecikdirildiyi ifadə olunub. Bununla əlaqədar görülən tədbirlər nəticəsində Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlər tərəfindən ümumilikdə 51,4 min manat məbləğində sosial xarakterli ödənişlərin işçilərə ödənilməsini təmin edib. Həmin məbləğin 93,1 faizi əməkhaqlarından, qalan hissəsi işəgötürənlərin ödəməli olduqları müavinət və kompensasiyalardan, zərərə görə ödənclərdən ibarət olub.

**Mustafa KAMAL, "Respublika".**

# Akademik Ramiz Mehdiyevin “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri” məqaləsinə fəlsəfi və real siyasi baxış

İyun ayının 4-də “Respublika” qəzetində **Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz MEHDİYEVİN “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri”** adlı son iki yüz illik tariximizi və məlum münaqişəni tarixi, fəlsəfi və ictimai-humanitar aspektdən elmi-fəlsəfi təhlillər əsasında, zəngin mənbələrə müraciət edilərək təhlil edilmiş məqaləsi ictimaiyyətə təqdim olundu. Əsl həqiqətdə tarixi faktlara istinad edilərək yazılmış, həm müasir regional, həm də beynəlxalq təhlükəsizliyin problem və perspektivlərinin fəlsəfəsinə həsr edilmiş bu elmi-fəlsəfi məqalə bir sanballı elmi-tədqiqat əsərindən, elmi monoqrafiyadan daha çox təsir qüvvəsinə malik olduğundan o müasir, siyasət, fəlsəfə, tarix və humanitar elmlərlə məşğul olan mütəxəssislər üçün tədqiq olunan problemin “mənbələri və nizamlanma perspektivləri” barədə tarixi-fəlsəfi traktat kimi qiymətləndirilməlidir.

Bu kontekstdən məqaləyə yanaşdıqda xüsusi qeyd etməliyik: birincisi, məqalə dərin fəlsəfi-tarixi, siyasi əhəmiyyəti özündə ehtiva edən zəngin traktatdır; ikincisi, bu traktatın tarixi kökləri, son dərəcə müxtəlif mənbələrdən - faktoloji tarixdən gəlir; üçüncüsü, burada uydurma və utopik erməni mifi elmi, fəlsəfi, siyasi və hətta fenomenoloji kontekstdən araşdırılır və elmi-fəlsəfi əsaslarla bu mifin fiksiya olduğu sübut edilir; dördüncüsü, beynəlxalq müasir münaqişələrin mahiyyəti və anatomiyası üzərində elmi-fəlsəfi analizlər aparılır və məlum münaqişənin anatomiyası təfsir edilərkən müasir utopik ideyaların siyasi nəzəriyyələr üçün ciddi əngəl olması diqqətə çatdırılır. Beşincisi, məqalənin xüsusi əhəmiyyəti ondadır ki, burada istifadə olunan mənbələrin əsasını arxiv sənədləri və mötəbər qaynaqlar təşkil edir. Düşünürük ki, müasir tariximizə dövlətçilik kontekstindən yanaşdıqda zamanın və tarixin fəlsəfi dərki anlamında bu məqalə hələ uzun müddət elmi-fəlsəfi, tarixi və digər siyasi-humanitar aspektdən mənalandırılacaqdır. Fəlsəfi-tarixi-siyasi traktatın fundamental əhəmiyyəti həm də ondadır ki, onada əsl həqiqətdə mövcud beynəlxalq münaqişələrin mahiyyətinə elmi-fəlsəfi baxış məlum münaqişənin mənbələri və nizamlanma perspektivləri ilə paralel olaraq əsas ana xətt kimi diqqət mərkəzinə çəkilərək interpretasiya olunur. Bu da müasir beynəlxalq münaqişələri nəzəri kontekstdə bir daha aktuallaşdırır və bu münaqişələrin həllinin fəlsəfi dərkini zərurətə çevirir.

Hörmətli akademik məqalənin əvvəlində problemə fəlsəfi-siyasi-tarixi anlamda yanaşaraq real dünya mənzərəsinin çoxaspektli və ziddiyyətli olmasını qeyd edərək yazır: “Bu gün dünyamızda gözlənilən hadisələrin proqnozlaşdırılması getdikcə çətinləşir, planetin çox hissələrində risklər, təhdidlər, qanlı münaqişələr artır, barışmaz qarşıdurmalar kəskin xarakter alır və bu vəziyyətin sonu görünmür. Bir sözlə, birqütblü dünya nizamı gözümüzün qarşısında pozulur. Dünya və regional miqyaslı aktorlar arasında qarşıdurma kəskinləşir, beynəlxalq hüququn əsas prinsipləri pozulur, sülhə və təhlükəsizliyə görə cavabdeh olan beynəlxalq strukturlar fəaliyyət göstərmirlər. Bu mürəkkəb şəraitdə dövlətlər milli maraqların müdafiəsinə yönəlmiş müxtəlif strategiyalardan istifadə edirlər”. Daha sonra belə çətin və mürəkkəb beynəlxalq şəraitdə az qala “hamının, hamıya qarşı” (T.Hobsun sosial nəzəriyyəsində olduğu kimi) dayandığı bir dövrdə nümunəvi seçim kimi Azərbaycanın tutduğu düzgün strateji kursu yüksək qiymətləndirərək hörmətli R.Ə.Mehdiyev yazır: “Məsələn, Azərbaycan Qoşulmama Hərəkatının tamhüquqlu üzvü kimi, bütün dövlətlərlə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə yönəlmiş ölçülüb-biçilmiş və müstəqil xarici siyasət kursu yürüdür”. Mürəkkəb şəraitə baxmayaraq, müstəqil suveren dövlət kimi Azərbaycanın tarazlaşdırılmış xarici siyasəti, enerji ehtiyatlarından praqmatik şəkildə istifadəsi, sosialyönümlü strategiyası və digər rasional proqramları hesabına dünyada böyük hörmət qazanması faktından bəhs edərək müəllif qeyd edir ki, hazırda *“Azərbaycan dövlətinin xarici siyasətinin ən mühüm prioriteti olan, keçmiş Sovet İttifaqından miras qalmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hələ də özünün qəti və ədalətli həllini gözləyir”.* Bəhs olunan bu mürəkkəb münaqişənin mənbələrinin mahiyyətini, tarixi və müasir konyunkturunu anlamaq üçün müəllif qeyd edir ki, “bu münaqişəni, ilk növbədə, Rusiya imperiyasının və sovet hakimiyyətinin Cənubi Qafqazda köçürmə siyasəti kontekstində araşdırmaq lazımdır”. Beləliklə, hazırda Cənubi Qafqazın ən böyük problem ocağı olan münaqişənin tarixi dinamikasından, mənbələrindən bəhs edərək Prezident Administrasiyasının rəhbəri bu elmi-fəlsəfi traktatda tariximizə fəlsəfi anlamda ekskurs edərək hələ on səkkizinci əsrdən başlayaraq ölkəmizin böyük imperiyaların - Osmanlı, İran və Rusiyanın maraq dairəsində olmasından, I Pyotrun Cənubi Qafqazı fəth etmək istiqamətində yürütdüyü siyasətindən, Nadir şah Əfşarın müstəqil Azərbaycan uğrunda mübarizəsindən, Çar Rusiyasının Cənubi Qafqazda xristian bufer dövləti yaradılması istiqamətində reallaşdırdığı ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürmə siyasətindən, İmperatriça II Yekaterinanın I Pyotrun vəsiyyətlərini davam etdirməsi istiqamətində yürütdüyü strateji planlardan və nəhayət, rus-İran müharibələri (1804-1813; 1826-1828-ci illər) nəticəsi olaraq Azərbaycanın parçalanmasından məqalədə geniş şəkildə bəhs edir. Tarixi prosesin faktoloji dinamikasını tarixi-fəlsəfi kontekstdə mənalandırarkən akademik R.Ə.Mehdiyev təkzibedilməz tarixi faktlardan çıxış edərək yazır: *“1828-ci ildə İran ilə Türkmənçay müqaviləsini imzalamaqla Rusiya ermənilərin Cənubi Qafqaz ərazisinə, daha dəqiq desək, əzəli Azərbaycan torpaqları olan keçmiş Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazilərinə köçürülməsinin birinci dalğasını həyata keçirdi”.*

Ermənilərin bölgəyə köçürülmə prosesinə rus mənbələri əsasında müaciət edərək akademik qeyd edir: *“Ermənilərin Qarabağa, İrəvana və Naxçıvana köçürülməsi rus yazıçısı və tarixçisi S.N.Qlinkanın 1831-ci ildə Moskvada nəşr edilmiş “Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri və Ermənistanın tarixi dövrlərinin ilkin qısa şərhi” (“Описание переселения армян аддербижанских в переделы Росии, с кратким предварительным изложением исторических времен Армении”) əsərində ətraflı təsvir olunub. 1828-ci il fevralın 26-dan iyunun 11-dək, yəni, üç ay yarım ərzində İrandan buraya 8249 erməni ailəsi və ya ən azı 40 min erməni köçürülüb. Sonrakı bir neçə ildə Osmanlı İmperiyasından bu üç keçmiş xanlığa daha 90 min erməni köçürülüb”.* Bu köçürülmələrin nəticələri məhz Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılmasının ilk zamanəti kimi çıxış etmişdir. Tarixə fəlsəfi kontekstdən yanaşaraq baş vermiş prosesi tam aydın şəkildə, heç bir tərəfə güzəştlər etməyərək dinamikanı mənbələrindən istifadə edərək müəllif qeyd edir ki, *“1829-cu ildə Rusiya ilə Osmanlı İmperiyası arasında 1828-1829-cu illər rus-türk müharibəsinə son qoymuş Adrianopol sülh müqaviləsi imzalanandan sonra köçürmənin ikinci dalğası başlandı. Həmin sazişin şərtlərinə əsasən Rusiya Osmanlı İmperiyasının ərazisində yaşayan çoxsaylı erməni ailələrini də yuxarıda göstərilən ərazilərə köçürdü”.* Münaqişənin mənbələrin üzərində dərin interpretasiyalar edərkən filosof maraqı güclərin məqsədli siyasəti nəticəsində köçürmələr hesabına ermənilərin regionda sürətlə çoxalmasından, Rusiyanın müstəmləkəçilik siyasətilə monofizit erməni kilsəsinin milli dövlət yaratmaq istiqamətində həyata keçirdiyi maraqlarının üst-üstə düşməsindən, çar Rusiyasının ermənipərəst siyasətininin davam etdirilməsində “beynəlmiləlçi sovet rəhbərliyinin” azərbaycanlılara münasibətdə etnik zəmində ayrı-seçkilik siyasəti yürütməsindən, onların sövetlər birliyində Moskvadakı erməni lobbisi və ermənipərəst dairələr tərəfindən daim və məqsədyönlü müdafiəsindən təkzibedilməz faktlarla bəhs edərək tarixi ədalətsizliyin - *münaqişənin mənbələri* üzərində dərin fəlsəfi analizlər edir.

Cümhuriyyətin süqutundan sonra yaranmış situasiyanı təhlil edərkən Azərbaycan ərazisinin faktiki utopik erməni ideyaları əsasında ermənilərə necə “hədiyyə” edilməsini göstərərək müəllif yazır: *“Beləliklə, 1920-ci ilin may ayında Azərbaycan Respublikasının Versal sülh konfransı tərəfindən tanınmış ərazisi 114 min kvadratkilometr idisə, sovet hakimiyyəti illərində, xüsusən 1920-ci illərdə onun ərazilərinin bir hissəsinin Ermənistana verilməsi hesabına bu ərazi azalaraq 86,6 min kvadratkilometrə bərabər oldu”.* Müasir Ermənistanın ərazi vahidinə və onun mənfur və məkrli siyasət nəticəsində genişləndirilməsinə diqqət çəkərək müəllif daha sonra qeyd edir: *“Azərbaycanın əzəli torpaqlarında süni dövlət qurumu yaradılarkən Ermənistanın özünün ərazisi 9,6 min kvadratkilometrə bərabər idi. Bu gün isə onun ərazisi Sovet hakimiyyəti tərəfindən Azərbaycan torpaqlarının Ermənistana verilməsi hesabına genişlənərək 29,7 min kvadratkilometrə çatıb. Qondarma “dənizdən-dənizə” ideyasını reallaşdırmağa çalışan Ermənistan 25 ildən artıqdır ki, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır”.*

Çox hörmətli akademikin qeyd etdiyi bu mənbələrin analizindən aydın bir nəticə meydana çıxır: tarixi baxımdan yanaşdıqda məlum olur ki, əslində müasir Ermənistan faktiki Azərbaycan torpaqlarında qurulmuş bir gəlmə dövlətdir. Bunu tarixi dinamika və istinad edilən mənbələr təkzibedilməz şəkildə təsdiq edir və uzaq olmayan tarix göstərir ki, Cənubi Qafqazda, ümumiyyətlə, regionda hansısa bir dövrdə erməni dövlətinin mövcudluğundan bəhs etmək ya tarixə şər atmaqdır, ya da ki, bu ümumiyyətlə, uydurulmuş bir mifdir. Zira ən qorxulusu odur ki, erməni ideoloqları bu xəstə təfəkkürü (böyük Ermənistan xəstəliyini) öz xalqlarının beyinlərinə yeritməklə onları inandırıblar ki, onlar - ermənilər Qafqazın aborigen əhalisidir. Fakt odur ki, öz ideoloqları və saxta tarixçilərinin yanlış təbliğatı nəticəsində ermənilər inanır və iddia edirlər ki, onların “dənizdən-dənizə” bir dövləti olmuşdur və bununla da onalr bu utopiya üzərində öz mifik arzularını həyata keçirmək ümidilə yaşayırlar. Məqalədə qeyd edildiyi kimi, təəssüf doğuran məqamlardan biri budur ki, hətta SSRİ dövründə dəfələrlə ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edir və müxtəlif üsullarla özlərinin “yazıq” tarixi obrazını, həm bərpa edir, həm də onu beynəlmiləlçi imiclə maskalamğa müvəffəq olurdular. Tarixi təsvirdən və müasir erməni “məsələsinin” faktlarla təkzibindən sonra müəllif qeyd edir ki, bütün bu prosesin nəticəsi olaraq *“beləliklə, çar Rusiyası və sovet hakimiyyəti tərəfindən iki əsr ərzində həyata keçirilmiş köçürmə siyasəti regionun demoqrafik mənzərəsinin əhəmiyyətli dərəcədə dəyişməsinə gətirib çıxardı. Bu prosesin son akkordu 1988-1993-cü illərdə 250 mindən çox azərbaycanlının Ermənistandan və 700 minə yaxın azərbaycanlının Dağlıq Qarabağdan və Azərbaycanın işğal edilmiş yeddi rayonundan qovulması oldu”.* Daha sonra müasir Azərbaycan filosofu R.Ə.Mehdiyev ürək ağrısıyla qeyd edir: *“Erməni milli ideyasının tərkib hissəsi olan bu iyrənc siyasət Azərbaycanın işğal edilmiş ərazilərində etnik təmizləmələrdən sonra bu torpaqları Ermənistana birləşdirməyə yönəlmişdi”.* Bütün bunlar faktdır, onları təkzib etmək barədə düşünmək özü ağılsızlıq olsa da, az qala 30 ilə yaxındır ki, erməni təbliğatı öz yalan istehsal edən maşını ilə bu faktları saxtalaşdırmaq yolunda hərəkətdədir. Yaxud beynəlxalq güclər Ermənistanın bu işğalçılıq siyasətini düzgün qiymətləndirmədiyindən hələ də problem öz həllini tapmır: Əslində nəinki tapmır, hörmətli müəllifin məqaləsindən aydın göründüyü kimi, bu münaqişə erməni ideoloqları tərəfindən ən eybəcər üsullarla bir növ günü-gündən, daha da dərin siyasi avantüra və siyası manevrlərlə “malalanmağa”, bəzək-düzək vurulmağa və unutdurulmağa istiqamətləndirilir.

Daha sonra müəllif məqalədə tarixi prosesləri siyasi-fəlsəfi anlamda izah edərək SSRİ-nin dağılmasından, Azərbaycan və Ermənistanın müstəqilliyini bərpa etməsindən və münaqişənin sürətlə beynəlmiləlləşərək beynəlxalq probləmə - regional, dünya miqyaslı müxtəlif aktorların mənafelərinin toqquşduğu maraq dairəsinədə, “problemin mənbəsinin ən son akkordlarından” bəhs edərkən nizamlama prespektivlərinidə olan çətinliklərin üzərində dayanır və onların səbəblərini göstərilir. Burada həmçinin ATƏM VƏ ATƏT-in problemlə bağlı ilkin münasibətlərindən, Minsk prosesinin əsasının qoyulmasından, 1992-ci illərdə baş vermiş ziddiyyətli proseslərdən və nəhayət, 1992-ci ilin mayında Şuşanın süqut etməsi ilə keçmiş DQMV-nin ərazisində azərbaycanlıların etnik təmizlənməsindən, daha sonra isə 1993-cü ilin sonuna qədər Azərbaycanın keçmiş DQMV ilə həmsərhəd olan 6 rayonun - Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın işğal edilməsindən və ermənilərin müasir günümüzdə belə sözün bütün mənalarıyla etnik təmizləmə siyasətini aparmasından ətraflı bəhs olunmuşdur. Müəllif münaqişə nəticəsində ölkəmizə dəyən maddi və mənəvi ziyandan, habelə kütləvi insan fəlakətinin miqyasından mənbələrə istinadən yazır: *“Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycana çox böyük maddi və mənəvi ziyan vuruldu. “1988-1993-cü illərdə Qarabağda 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb”. Bu münaqişə nəticəsində hərbi əməliyyatlar dövründə 20 min azərbaycanlı həlak olub, 50 min nəfər şikəst olub, 4 minə yaxın azərbaycanlı itkin düşüb, 2 mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb”.*

Məqalədə münaqişənin nizamlanması barədə BMT Təhlükəsizlik Şurası tərəfindən dörd (822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) nömrəli) qətnamə qəbul edilməsindən, bu qətnamələrdə Dağlıq Qarabağ regionunun Azərbaycana mənsub olmasının birmənalı təsbitindən, orada əsas tələblərdən biri kimi hərbi əməliyyatların dərhal dayandırılması və işğalçı qüvvələrin qeyd-şərtsiz işğal onunmuş ərazilərdən çıxarılması tələbindən, həmin qətnamələrin bu gün də faktiki olaraq münaqişənin nizamlanmasının hüquqi əsasını təşkil etməsindən, bu qətnamələrə ümummilli lider Heydər Əliyev böyük əhəmiyyət verməsindən, 1994-cü ilin sentyabrında “Əsrin Müqaviləsi”nin imzalanması və onun nəticəsində Azərbaycanın kompleks və sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoymasından geniş və ətraflı bəhs olunur. Hörmətli akademik bu əsərdə münaqişənin nizamlanması istiqamətində, 1994-cü ildən başlayaraq ATƏM-in Budapeşt, daha sonra ATƏT-in Lissabon sammitinin sənədlərinə, 1997-ci ilin əvvəlindən ATƏT-də üçtərəfli həmsədrlik (Rusiya-Fransa-ABŞ) təsisatı yaradılması və 1997-2001-ci illər ərzində beynəlxalq təsasatlar tərəfindən münaqişənin nizamlanmasına dair bir neçə variantın təqdim olunmasından, ATƏT-in Minsk qrupunun həmsədrlərinin 1997-ci ilin sentyabrında hər iki tərəfə təqdim etdiyi “Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında” Sazişi nəzərdən keçirmək üçün qəbul etməyə razılaşmasından ətraflı bəhs edərək, bu illər ərzində münaqişənin sülh yolu ilə nizmamlanması üçün ölkəmizin ciddi səylərini xüsusi qeyd edir.

Daha sonra müəllif vurğulayır ki, münaqişənin nizamlanma istiqamətində atılan addım kimi bu - *“İkinci mərhələdə Dağlıq Qarabağın statusunun müəyyən edilməsi, habelə Laçın və Şuşa rayonları ətrafında vəziyyətin nizamlanması nəzərdə tutulurdu. Ermənistanın ovaxtkı prezidenti L.Ter-Petrosyan da nizamlamanın bu variantı ilə bağlı ilkin razılığını bildirmişdi”.* Həmin dövrdə əsl həqiqətdə problemin həllinə tərəflərin nə qədər yaxın olduğuna diqqəti çəkərək müəllif qeyd edir: *“O, (L.Ter-Petrosyan) həmin planın qəbul edilməsinin məqsədəuyğunluğu məsələsində öz siyasi opponentləri tərəfindən kəskin tənqid edilməsinə baxmayaraq, “Respublika Armeniya” qəzetində “Müharibə, yoxsa sülh: düşünmək vaxtıdır” adlı proqram xarakterli məqalə dərc etdirmiş, orada problemə öz münasibətinin əsas tezislərini şərh etmişdi. Həmin məqalənin tezisləri bu gün də öz aktuallığını itirməyib”.* L.Ter-Petrosyanın sonrakı erməni rəhbərlərindən fərqli olaraq problemə realist yanaşmasından bəhs edərək müəllif qeyd edir: “Təəssüf ki, Ermənistanın digər rəhbərləri münaqişənin nizamlanmasına L.Ter-Petrosyanın realist yanaşmaları ilə razılaşmadılar və 1998-ci ilin fevralında faktiki olaraq onu istefa verməyə məcbur etdilər. Bunun nəticəsində Ermənistan münaqişənin mərhələli nizamlaması təkliflərindən rəsmən imtina etdiyini bildirdi və beləliklə, münaqişənin həlli üçün iyirmi il bundan əvvəl yaranmış nadir imkan əldən buraxıldı”.

Bundan sonra hadisələrin inkişafında baş vermiş ən müxtəlif proseslərdən nizamlama istiqamətində həm beynəlxalq qurumların, həm də Azərbaycanın apardığı səylər və onların nəticələrindən, danışıqların bəzi mərhələlərdə dalana dirənməsindən, Ermənistanın danışıqlar zamanı ciddi konyunkturasından, beynəlxalq təşkilatların və münaqişənin həllini üzərinə götürmüş həmsədrlərin vacib məqamlarda ciddi addım atmamasından, Avropada baş verən Kataloniya prosesindən, Ukrayna hadisələrindən, ABŞ-ın Kosovodakı mövqeyindən və bu zaman “ikili standartlar” siyasətinin işə düşməsindən bəhs edərək filosof yazır: *“Ədalət naminə qeyd edilməlidir ki, bu təzyiqə baxmayaraq, qondarma “ikinci erməni dövləti”nin beynəlxalq miqyasda tanınması haqqında məsələ heç vaxt praktiki müstəvidə qoyulmayıb”. Bütün bunlardan sonra müəllif qeyd edir ki, “erməni cəmiyyəti döyüş meydanında qazanılan “qələbə”ni tezliklə diplomatik sahədə möhkəmləndirmək ümidi ilə yaşayıb. Lakin Ermənistan rəhbərliyi bir məsələni başa düşə bilməyib ki, qonşu dövlətə təcavüz etməklə, onun ərazisini işğal etməklə, etnik təmizləmələr aparmaqla, şəhər və kəndlərini viran qoymaqla, Ermənistan, əslində, qalib gəlməyib, uduzub! O, bu qədər fürsəti əldən verərək, sülhü uduzub”.* Beləliklə, erməni ideoloqlarının və intriqant hökumət rəhbərliyinin tələsinə düşmüş erməni xalqı anlamır ki, onların xilası sülhdədir, bu sülh və “diplomatik qələbə” isə məhz Azərbaycan torpaqlarının azad edilməsindən sonra “qazanıla” bilər.

Bəhs etdiyimiz fundamental traktat tarixi-fəlsəfi-siyasi anlamda dərin mahiyyət kəsb etdiyindən, fikrimizcə, bir qısa yazı ilə onu tam və ətraflı mənalandırmaq mümkün deyildir. Odur ki, bütün bu məsuliyyəti anlayaraq tədqiq olunan məqalədən münaqişənin nizamlanma prosesi üçün fəlsəfi mahiyyət kəsb edən 11 tezisi hörmətli oxucuya təqdim etməyi məqsədəmüvafiq hesab edirik:

*1. “Bu gün Ermənistan onu da etiraf etməlidir ki, Azərbaycanın işğal edilmiş ərazilərində qurulmuş separatçı rejim Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mövcuddur. Azərbaycanın işğal edilmiş ərazilərinə məhz Ermənistan nəzarət edir. Avropa İnsan Haqları Məhkəməsinin “Çiraqov və başqaları Ermənistana qarşı” işi üzrə qərarı da bunu təsdiq edir”.*

*2. Azərbaycanın dəfələrlə bəyan etdiyi kimi, işğal edilmiş Dağlıq Qarabağda və ətraf yeddi rayonda Yerevan tərəfindən yaradılmış oyuncaq rejim həm Azərbaycan Respublikasının qanunvericiliyini, həm də beynəlxalq hüququ kobud şəkildə pozan qeyri-qanuni fəaliyyətlə geniş məşğul olur.*

*3. Çox güman ki, məhz 2016-cı ilin aprel hadisələri Ermənistanda hakimiyyətin “məxməri inqilab” nəticəsində növbəti dəfə dəyişməsinin səbəblərindən biri olub. Kriminal Koçaryan-Sarkisyan rejiminin yerinə gələn Ermənistanın yeni rəhbərliyi xalqa korrupsiyaya qarşı mübarizə və sosial-iqtisadi islahatlar aparılacağını vəd edib. 2018-ci il dekabrın 9-da vaxtından əvvəl keçirilmiş parlament seçkilərində N.Paşinyanın “Mənim addımım” blokunun inamlı qələbəsindən, onun özünün isə 2019-cu il yanvarın 14-də baş nazir seçilməsindən sonra optimistlər belə bir fikir söylədilər ki, məhz Qarabağ kökləri olmayan N.Paşinyan erməni xalqından mandat alaraq münaqişənin nizamlanmasına nail ola bilər. Lakin N.Paşinyanın bir-birinə zidd olan bəyanatları bunun əksini göstərir.*

*4. Ermənistanın indiki hakimiyyət orqanlarının qarşısında duran daha bir mürəkkəb çağırış “əhalinin sülhə hazırlanması” ideyasını populyarlaşdırmaqdır. Özü də ermənilərin onilliklər ərzində sülh tərəfdarı olduqlarını bəyan etmələrinə baxmayaraq, cəmiyyəti sülhə hazırlamaq çağırışına onların reaksiyası əsla birmənalı olmayıb”.*

*5. Qeyd edildiyi kimi, martın 29-da Vyanada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair ilk rəsmi danışıqlar keçirilib. Bu danışıqların yekunları ehtiyatlı nikbinlik hissi yaradır.*

*6. “Ermənistan tərəfindən xoş məram nümayiş etdiriləcəyi və Azərbaycanın işğal altında olan rayonlarının azad edilməsinə başlanacağı təqdirdə, Azərbaycan Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verilməsi məsələsini müzakirə etməyə hazırdır”.*

*7. “Son görüşlər barəsində müəyyən qədər nikbin olsam da, hər halda bunu vurğulamağa məcburam ki, danışıqlar prosesinin indiki mərhələsi asan olmayacaq. Ermənistanın rəsmi şəxslərinin bir-birinə zidd bəyanatları, o cümlədən həmin ölkənin müdafiə naziri D.Tonayanın məsuliyyətsiz bəyanatı bunu təsdiq edir. O, martın 29-da Nyu-Yorkda ABŞ-ın erməni icmasının nümayəndələri ilə görüş zamanı bildirib ki, “sülh müqabilində ərazilər” formulunu “yeni müharibə - yeni ərazilər” formulu ilə əvəz edir.*

*8. Bir-birinə zidd olan çoxsaylı bəyanatlara əsasən, N.Paşinyan münaqişənin nizamlanması kontekstində də praktiki addımlar atmayacaq. Bunu qondarma “DQR” nümayəndələrinin danışıqlarda iştirak məsələsini vaxtaşırı qabartmaq cəhdləri təsdiq edir.*

*9. “N.Paşinyan nizamlamanın baza prinsiplərini və elementlərini təftiş edərək bildirir ki, “Azərbaycanın bu prinsiplərlə bağlı təqdim etdiyi interpretasiyalar bizim üçün qəbuledilməzdir”. Mənə elə gəlir ki, Minsk qrupunun həmsədrləri burada, o cümlədən erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması və beynəlxalq təhlükəsizlik zəmanətinin verilməsinə cavab olaraq məcburi köçkünlərin qaytarılması kimi nizamlama elementlərinin birinci növbədə həyata keçirilməsi məsələsində qəti nümayiş etdirməlidirlər”.*

*10. Bununla belə, əgər Ermənistan sivil demokratik dövlət kimi görünmək istəyirsə, onda öz silahlı qüvvələrini beynəlxalq hüququn əsas norma və prinsiplərinə müvafiq surətdə Azərbaycanın hamı tərəfindən tanınmış sərhədlərinin hüdudlarından kənara çıxarmalıdır.*

*11. “Ümid edək ki, Ermənistanın yeni rəhbərliyi, nəhayət, bu faktı dərk edəcək və Ermənistanın birinci prezidentinin acı təcrübəsini nəzərə alaraq, çoxdan gözlənilən sülhü əldə etmək istiqamətində əməli addımlar atacaq”.*

Beləliklə, yuxarıda bəhs olunan dərin, tarixi faktlarla con dərəcə zəngin məqalə elmi fəlsəfi kontekstdə interpretasiya olunarkən məlum olur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi süni şəkildə həm erməni ideoloqları, həm də beynəlxalq güclər tərəfindən meydana çıxarılmış bir münaqişədir və onun *mənbələrinin əsasını* məqalədə qeyd olunan tarixi xətt təşkil etməkdədir. Bu münaqişənin həll olunmasında Azərbaycan tərəfi həmişə böyük səy göstərsə də, həm maraqlı beynəlxalq güclər, həm də Ermənistana rəhbərlik etmiş şəxslər, xüsusilə, R.Koçaryan və S.Sarkisyan hökumətləri münaqişənin *nizamlanma kursunu* labirintə salmaq üçün ciddi cəhdlər etmişlər. Xalqlar arasında səpilmiş dərin nifrətin toxumu və mənbəsini bilavasitə erməni ideoloqlarının uzunmüddətli təbliğatı və tarixən azərbaycanlılara qarşı aparılmış çoxaspektli soyqırımı siyasəti təşkil edir.

Traktat elmi-fəlsəfi-siyasi kontekstdə interpretasiya olunarkən məlum olur ki, hazırda münaqişəsinin nizamlanma prosesinə mane olan faktlar içərisində ən başlıca xətt kimi aşağıdakı amilləri göstərmək olar: Ermənistanda son 30 ildə hakimiyyətdə olanların (nisbətən L.Ter-Petrosyanının mövqeyi istisna olmaqla) Qarabağ münaqişəsinin həllinin deyil, onun uzadılmasının tərəfdarı kimi çıxış etməsini; Beynəlxalq erməni diasporunun münaqişənin uzadılmasını dəstəkləməsini; Maraqlı regional və beynəlxalq qüvvələrin, o cümlədən münaqişənin həllində bilavasitə cavabdehliyi daşıyan təşkilatların bəzilərinin münaqişənin həllində maraqlı olmamasını və Ermənistana hamiliyini; Dağlıq Qarabağ saxta rejiminin münaqişənin həllinə bütün vasitələrlə maneə törətməsini; Münaqişə şəraitindən konkrekt gəlir götürən narkomafiya və kriminal DQ rejiminin Ermənistan hakimiyyəti tərəfindən birmənalı müdafiəsini; Erməni kilsəsinin tarixən münaqişənin həllinə hətta azaçıq şans yaranan zaman “imkanların və ümidlərin” qapadılması istiqamətində apardığı genişmiqyaslı fəaliyyətini; Ermənistana rəhbərlik edən şəxslərdə siyasi iradənin, xarizmanın, humanizm amillərinin çatışmamasını; Nəhayət, barışığa meyil edən sadə erməni xalqının iradəsinin qırılmasını və Azərbaycanda aparılan dialoq, multikulturalizm və tolerantlıq strategiyasından, ideyalarından erməni xalqının izoliyasiya edilməsi və b. amilləri göstərmək olar.

Hesab edirik ki, nəticə olaraq bir neçə ciddi punktların üstündə dayanaraq onları aşağıdakı kimi ümumiləşdirmək çox vacibdir: Beləliklə, geniş elmi-fəlsəfi və ictimai müzakirəyə təqdim olunan əsərdə bəhs olunan münaqişənin mənbələri və nizamlanma prosesinin genologiyası, siyasi, sosial, iqtisadi, humanitar və s. perspektivlərindən bəhs olunarkən burada Ermənistan və o cümlədən, onları müdafiə edənlər üçün çox ciddi mesajların olduğu məlum olur: Burada izah edilir ki, hər bir tərəf - istər beynəlxalq qurumlar, istərsə də Ermənistan anlamalıdır ki, artıq münaqişənin həll olunması zamanı çoxdan çatmışdır və hətta gecikmişdir. Beynəlxalq güclər, nəhayət, qəbul etməlidirlər ki, müasir münaqişələrin, o cümlədən bu münaqişənin fəlsəfəsinə dağıdıcı fəlsəfələr kontekstindən deyil, qurucu, birləşdirici və birgəmövcudluq fəlsəfəsinin ali prinsiplərindən baxmaq zamanın-qloballaşmanın bir nömrəli çağrışlarındandır. Yumşaq güc nəzəriyyəsinin tərkibinin aktoru kimi çıxış etdirilən status-kvo sonsuza qədər davam edə bilməz. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan heç zaman öz ərazilərində ikinci erməni dövlətinin yaranmasına razı ola bilməz. Son iki yüz ildə Azərbaycan üçün ciddi bir problemə çevrilmiş uydurma “erməni məsələsi” əslində erməni ideoloqlarının regiona bəxş etdiyi çox təhlükəli və qorxulu bir ideoloji utopiyadır və onun vasitəsilə uzun müddətdir ki, azərbaycanlılara, regionda yaşayan digər qonşu xalqlara qarşı çoxtərifli genosid həyata keçrilməkdədir. Bu ideoloji xəstəlik artıq total olaraq erməni məfkurəsinə çevrildiyindən, bu yanlış tarixi xətt erməni xalqının özünü hətta məhvolmanın astanasına gətirib çıxarmışdır. İqtisadi, sosial, humanitar səfalət, mənəvi nihilizm ermənilərin sabaha ümidlərini puça çıxarmışdır. Halbuki təkcə Azərbaycanın resurslarının bir qismi əgər münaqişə baş verməsəydi sadə erməni xalqının problemlərinin biryolluq həllinə bəs edərdi. Bu tarixi şansdan erməni xalqını erməni ideoloqlarının məkrli siyasəti məhrum etmişdir.

Məqalədən digər bir ciddi mesajın fəlsəfəsi aşağıdaki kimidir: İndi ermənilərin böyük ümidlə baxdıqları küçə demokratiyası ilə hakimiyyətə gəlmiş Paşinyanın köhnə sələflərindən o qədər də fərqlənməyən siyasəti göstərir ki, erməni xalqının bəlaları hələ qurtarmamışdır və onların öz rəhbərlərindən səadət gözləmələri əbəsdir. Bu səadəti onlara yalız münaqişənin həlli və Böyük Sülh verə bilər. Odur ki, yeni erməni rəhbərləri anlamalıdırlar ki, bu münaqişədə uzaq olmayan tarixdə, yaxud elə müasir günümüzdə erməni ideoloqlarının və R.Koçaryan-S.Sarkisyan hakimiyyəti nə qədər tarixi məsuliyyət daşıyırsa, Paşinyan hakimiyyəti də bu məsuliyyətdən kənarda deyildir. Müasir hadisələr fəlsəfi baxımdan mənalandırılarkən hörmətli filosofun qeyd etdiyi kimi: *“Tamamilə haqlı olaraq belə bir hiss yaranır ki, N.Paşinyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına görə məsuliyyəti özgəsinin üzərinə qoymağa çalışır, çünki gah bəyan edir ki, Qarabağ adından danışıqlar aparmaq hüququ yoxdur, gah da erməni xalqına müraciət edərək bildirir ki, Qarabağ problemini elə onun özü həll etməlidir”.* Bütün bunlar isə əslində əvvəlki erməni rəhbərlərinin də buraxdığı tarixi səhvlərdən başqa bir şey deyildir, yaxud nizamlanma prosesinin fəlsəfi mahiyyətindən ümumiyyətlə, N.Paşinyanın siyasi-fəlsəfi xəbərsizliyidir.

Bu dərin və məzmunlu məqalədən çıxardığımız ən mühüm fəlsəfi nəticələrdən biri aşağıdakı kimidir: Münaqişənin nizamlanma prosesində ciddi əngəllərdən biri kimi çıxış edən bir sıra beynəlxalq aktorlara gəldikdə təəssüf ki, məhz onların ya passivliyi və biganəliyi, ya da bilavasitə “ikili standartların” mövcudluğu səbəbindən bu gün BMT-nin ali prinsiplərindən biri hesab edilən beynəlxalq hüquq və demokratiyanın aliliyi bir çox məqamlarda ya işləmir, ya da ki, təəssüf ki, söz oyunundan, olsun ki, siyasi sofistikadan başqa bir şeyi ifadə etmir. Bu anlamda burada hörmətli akademik Ramiz Mehdiyevin elmi-fəlsəfi məqaləsindən çıxarılmış interpretasiya olaraq yalnız bir faktı göstərmək kifayət edər ki, problemin fəlsəfi mahiyyətində, böyük alman filosofu F.Nitsşenin demokratiya barədə ifadəsi öz təsdiqini tapmış olsun: Vaxtilə F.Nitsşe, qeyd edirdi ki, (müasir demokratiyanın) minib sürdüyü atlar yenidir, yollar və arabalarsa əvvəlkilərdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində hər iki tərəfə beynəlxalq müstəvidə eyni münasibətin göstərilməsi sübut edir ki, həqiqətən də “yollar və arabalar” əvvəlkilərdir, yalnız bu gedişatda “atlar” dəyişdirilmişdir. Yox, belə deyilsə, işğalçı ilə işğala məruz qalan tərəflər arasında bərabərlik işarəsi nəyi ifadə edir? Məgər beynəlxalq hüquq işğal və işğala məruz qalan tərəfləri ayıra bilmir? Bu halda sual yaranır: uzun müddət böyük sülhə inanaraq atəşkəsə söykənənlər yenidənmi total əsgər ölümlərinə, anaların axan göz yaşlarına şahidlik edəcəkdir? Bəs o zaman bunun məsuliyyətini kim daşıyacaq? Müharibə olarsa, Ermənistanın gələcək iflasının, fəlakətinin məsuliyyəti kimin üzərində qalacaq? Və nəhayət, müasir beynəlxalq münaqişələrə yüksək əxlaq, etika, mədəniyyət, humanizm və s. prinsiplərindən yanaşmağın vaxtı çatmayıbmı? Başqa sözlə, bu ənənəvi siyasət bizi - bəşəriyyəti tötal ölümə - üçüncü dünya müharibəsi fəlakətinə aparmırmı? Bu anlamda yanaşdıqda nəticə olaraqə görürük ki, əslində hörmətli filosofun bu əsəri dünya ictimaiyyəti üçün bir həyəcan təbilidir, fikrimizcə, hələ bu sanballı traktatda qaldırılmış dərin fəlsəfi mülahizələr nəzəri fikirin uzun müddət obyekti olaraq qalacaqdır.

Bu danılmaz faktdır ki, Azərbaycan bu gün dünyanın, xüsusilə Qərbin enerji təhlükəsizliyində və regionun iqtisadi-sosial, humanitar inkişafında ən yüksək şəkildə iştirakı ilə ciddi töhfələr verir. Regional layihələrin gerşəkləşdirilməsinin baş aktoru olan ölkəmiz indi mədəniyyətlərin, sivilizasiyaların və dinlərin dialoqunu, əlaqə və münasibətlərini gerçəkləşdirən ölkə kimi tanınmaqdadır. Ölkəmiz humanitar tədbirlərin, beynəlxalq konfransların, müxtəlif siyasi, iqtisadi, mədəni, və s. forumların keçrildiyi məkan kimi tanınmaqdadır. Beynəlxalq ekspertlər dəfələrlə münaqişə tərəflərinin bütün sferalarda potensialını müxtəlif indikatorlarla ölçərkən birmənalı olaraq bütün üstünlükləri Azərbaycanın xeyrinə qiymətləndirirlər. Məqalədən də aydın şəkildə hasil olunduğu kimi, Azərbaycan bu gün çox güclü orduya malikdir, ordumuzun gücü və hərbi üstünlüyü getdikcə artmaqdadır. 2016-cı ildə aprel əməliyyatları zamanı Azərbaycan sübut etdi ki, işğal faktı və status-kvo əbədi davam edə bilməz. Sülh və əmin-amanlıq, multikulturalizm və tolerantlıq bu xalqın həyat tərizi və taleyi, milli xüsusiyyətləri olsa da, o öz torpaqlarının bir qarışından da imtina etməyəcəkdir. Bir şeyi unutmamalıyıq ki, ümumiyyətlə, erməni xalqı unutmamalıdır ki, onların bəlasının kökləri səhv ideologiya nəticəsindən meydana gəlmiş və yanlış fəlsəfi-tarixi interpretasiyalarından qaynaqlanır. Onlar anlamalıdırlar: əgər iqtisadi və sosial cəhətdən yüksək səviyyədə təmin olunmaq, sosial rifaha çatmaq istəyirlərsə, məhz Azərbaycanın işğal olunmuş ərazilərini işğaldan azad etməldirlər. Erməni ideoloqlar anlamalıdırlar ki, dünyada elə bir xalq yoxdur ki, əbədi olaraq öz həyatlarını başqalarına qarşı nifrət üzərində quraraq tarixdə öz xoşbəxtliklərini təmin etsin. Belə xalqlar və tayfalar tarixdə mövcud olsalar da, onlar məhz özlərini sonda başqalarına bəslədikləri nifrətə qurban verərək, məhv olaraq tarix səhnəsindən silinmişlər. Hər halda erməni tarixçiləri bunu bilməmiş deyildirlər. Odur ki, məqalədən çıxardığımız bir fəlsəfi nəticəni də erməni ideoloqların nəzərinə çatdırmaq istərdik: Tarixin pis örnəklərini deyil, yaxşı, qurucu tərəfini özünüzün həyat tərzinizə çevirin. İngilis, fransız və alman xalqlarının orta əsrlərdəki müharibələrini və bugünkü nailiyyətlərini xatırlayın: onlar bu gün Avropanı sülh və əmin-amanlıq, sosial bərabərlik və qardaşlıq rəmzinə çevriblər; bu utopiya deyil, müasir sivilizasiyanın real tarixi-siyasi mənzərəsidir. Bu anlamda hesab edirik ki, məqaləni akademik Ramiz Mehdiyevin istinad etdiyi fəlsəfi-tarixi-siyasi faktlarla bitirmək məqsədəmüvafiqdir və ümid edirik ki, heç olmasa bu sonuncu tezisin fəlsəfəsini dərk etməkdə müasir siyasi avantüristlər özündə qüvvə tapacaqlar. Akademik R.Ə.Mehdiyev yazır: *“Amerikalı ilahiyyatçı Ceyms Friman Klarkın (1810-1888) bir çoxlarına yaxşı tanış olan müdrik sözlərini Ermənistanın siyasi liderlərinə xatırlatmaq yerinə düşər. O deyib: “Siyasətçi növbəti seçkilər haqqında düşünən insandır, halbuki, dövlət xadimi gələcək nəsillər haqqında düşünür!”.* Qeyd edək ki, C.F.Klark bu fikri çox rəmzi adı olan “Dövlət xadimi axtarılır!” sərlövhəli məqaləsində yazıb”. İbrətamizdir.

**Şölət ZEYNALOV,**
**AMEA-nın Fəlsəfə İnstitutu,**
**fəlsəfə üzrə fəlsəfə doktoru.**

# ÜLVİYYƏT İŞIĞINDA YAŞANAN ÖMÜR

**Qadının böyük güc və qüdrət sahibi olduğunu həyatımız boyu eşitmiş və bunun şahidi olmuşuq. Bu zərif təbiətli, incə varlıq həm də dözümü, dəyanəti ilə qüdrətlidir, möhtəşəmdir. Ailənin məhək daşı kişidirsə, onun yanar közü, tərbiyəçisi də qadındır. Yəni övladların tərbiyə olunmasında, onların gələcəyə hazırlanmasında ən böyük yük və güc ananın üzərinə düşür. Bu mənada ana təkcə ailənin deyil, həm də cəmiyyətin tərbiyəçisidir deyənlər haqlıdırlar. Üstəlik, qadının cəmiyyət həyatında da fəaliyyət göstərməsi, həyatımızın bütün sahələrinə işıq təki saçması onun daha bir fədakarlığı, ali keyfiyyətidir.**

Bu söylədiklərim heç də qısa bir zamanda yaranmış fikirlər deyil. Bəşər tarixinin yaddaşından günümüzəcən yol gələn həyat həqiqətlərinin, gerçəkliyin aynasında əksidir. Belə bir ülviyyət işığında neçə onilliklər Bakı Dövlət Universitetində birgə çalışdığım, təbiətinə, xarakterinə yaxından bələd olduğum, əqidəsi də, sözü də bütöv olan, gözündən, könlündən süzülən təbəssümü ilə hər zaman işıq təki saçılan Ədibə xanım Paşayeva haqqında söz demək niyyətində oldum...

Çox qəribədir, bəzən elə olur ki, bütün varlığı, düşüncəsi ilə sənə yaxın olan bir insan haqqında məqamı yetəndə söz deməyə çətinlik çəkirsən. Sanki illər içrə haqqında yaranan duyğusal fikirlər sapından açılan mirvarilər kimi ətrafa səpələnir. Amma nə qədər çətin olsa da, Ədibə xanım Paşayevanın xarakterində, əməllərində elə işıqlı məqamlar var ki, onları xatırladıqca sanki söz özü qələmə sarı gəlir...

Həmişə düşünmüşəm ki, işıqlı, nurlu insanlar haqqında ən yaxşı fikirlər dan üzünün yenicə söküldüyü, təbiəti, insanları salama gəldiyi məqamlarda yaranır... Sabahın belə bir təmiz, ləkəsiz çağında söz-istək də bəndi-bərəni aşıb keçən çaylar təki axıb-gedir. Elə mən də Ədibə xanım haqqında düşüncələrimi səhərin belə bir çağında qələmə aldım...

Uzun illərin müşahidələrindən görmüşəm ki, Ədibə xanımı çalışdığı Bakı Dövlət Universitetinin müəllim-tələbə kollektivinə, cəmiyyətə sevdirən amillər çoxdur. Bunlar tanınmış elm xadimi, pedaqoqun universitet həyatında göstərdiyi fəaliyyəti, əməli çalışmaları, özünün elmi potensialı ilə yüksək səviyyəli kadrlar hazırlaması, vətənə əsl vətəndaşlar yetişdirməsi, digər tərəfdən də xarakterində olan sadəlik, içdən gələn səmimiyyət, qayğıkeşlik kimi keyfiyyətlərdir. O, sözün əsl mənasında, çoxlarının qibtə edəcəyi səviyyədə bir kübar xanımdır. Geniş dünyagörüşə malik olan Ədibə xanım Paşayeva alicənab, xeyirxah, ailəsinə, övladlarına, doğmalarına, onların da timsalında vətəni Azərbaycana, onun mədəniyyətinə bütün varlığı ilə bağlı bir insandır.

Təbii ki, Ədibə xanım bu keyfiyyətləri doğulduğu ailənin mayasında olan mənəvi-əxlaqi dəyərlərdən əxz edib. Yəni onun göz açdığı ailənin bünövrə daşı - görkəmli ədib, ədəbiyyatşünas alim, tənqidçi, pedaqoq, ictimai xadim Mir Cəlal Paşayevin azərbaycançılıq məfkurəsi, milli kökə bağlılığı, ailə dəyərlərinə ehtiramı, həssaslığı kökün bütün qol-budağına sirayət etmiş, onların bu ruhda böyüməsinə, tərbiyə olunmasına zəmin yaratmışdır. Mir Cəlal müəllim özü də vaxtilə söhbətlərində, əsərlərinin birində də böyük ürəklə, məhəbbətlə bildirmişdir ki, həyatımda yaratdığım ən böyük əsərim - ailəmdir. Bütün bunlar özünü müqtədir insanın ailədə və cəmiyyətdə davranışı, yetirmələri olan yüzlərlə tələbələri ilə münasibətində açıq-aydın büruzə verirdi. Bu, ailə başçısının ocağına sədaqəti, bağlılığıdır, onun varlığı ilə nəfəs aldığı, yaşadığı bir ömrün ən incə, həssas akkordudur. Ailə sütununun möhkəmliyi, sarsılmazlığıdır. Belə bir ocaqda tərbiyə alan uşaqlar vətəninə, xalqına, onun övladlarına bağlı olmaya bilərdimi... Elə ailədəki qayda-qanunlar, düzgün tərbiyə, əxlaq normalarına həssaslıqla yanaşmanın nəticəsidir ki, Mir Cəlal ocağının yetirmələri olan övladları bu gün Azərbaycan cəmiyyətində vətən naminə, dövlətçiliyimizin qorunması, möhkəmlənməsi yolunda vicdanla çalışırlar. Ədibə xanımı da yetişdirdiyi tələbələrinə təkcə müəllim kimi deyil, həm də xeyirxah bir insan, ana olaraq, milli dəyərlərə malik vətəndaş kimi bağlayan da məhz ailədən görüb-götürdüyü və bütün həyatı, fəaliyyəti boyu düşüncəsində daşıdığı bu ali keyfiyyətlərdi...

Vaxtilə Ədibə xanımın anası, əsl ailə xanımı olan Püstəxanım ananı görmək, onunla söhbətləşmək mənə də nəsib olub. Və mən bu gün minnətdarlıq hissilə xatırlayıram ki, elə ilk tanışlıqdan bu el anasının ailə dəyərlərinə necə bir cəfakeşliklə yanaşdığının şahidi oldum. Belə ki, övladlarına böyük ana məhəbbəti, qayğısı ilə yanaşmasından mən də gənc ana olaraq çox şeylər əxz etdim. Ailəyə bağlı olmağın, fədakarlığın gözəl nümunəsini bu ananın timsalında gördüm və götürdüm... Düşünürəm ki, vaxtilə Mir Cəlal müəllimi, onun ömür-gün yoldaşı Püstəxanım ananı yaxından tanıyanlar, onlarla ünsiyyətdə olanlar da bu müdrik cütlüyün yaşatdığı və qoruduğu ailə dəyərlərindən çox şeylər əxz ediblər...

Sözün bu məqamında düşünürəm ki, Ədibə Mir Cəlal qızı Paşayevanı ictimaiyyətə geniş aspektdə təqdim etməyə ehtiyac olmasa da, həyatından, elmi-ictimai fəaliyyəti ilə bağlı bəzi məqamları xatırlatmağım yerinə düşər. Ədibə xanım 1960-65-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki BDU) təhsil alıb. Bu illərdə o, özünün çalışqanlığı, zəhmətsevərliyi, bir tələbə kimi yüksək keyfiyyətləri, güclü xarakteri ilə tanınıb. O, Universitetin ictimai həyatında da fəallığı ilə fərqlənib. Və bu elm ocağını müvəffəqiyyətlə başa vurduqdan sonra elə əmək fəaliyyətinə də doğma universitetində başlayıb.

Ədibə Paşayevanın elmi yaradıcılığı da daim diqqət mərkəzində olub. O, tədris etdiyi fənni tələbələrinə incəliyinə qədər öyrətmək, mənimsətmək üçün dərsliklər, metodiki göstərişlər, proqramlar və digər tədris vəsaitlərini yazaraq nəşr etdirmişdir. Və uzun illərdir ki, alimin əsərləri bu sahədə təhsil alan gənclərin ədəbiyyata olan ehtiyaclarını mümkün qədər ödəyə bilmişdir. Ötən illər ərzində tanınmış pedaqoq bir neçə Beynəlxalq seminar, simpozium və konfranslarda geniş və dərin məzmunlu məruzələrlə çıxış etmişdir. Ədibə Paşayeva hazırda Humanitar fakültələr üzrə Rus dili kafedrasının müdiri, professorudur... Bunlar Ədibə Paşayevanın tərcümeyi-halından iqtibas olunmuş yığcam sətirlərdir. Əslində onun bir alim, pedaqoq, vətəndaş kimi yaşadığı həyat böyük təəssüratlarla zəngindir və bunlar professorun elmimizin, mədəniyyətimizin inkişafı naminə gələcəyə hazırladığı yüzlərlə tələbənin həyatında gün kimi işıq saçır...

Xüsusi qeyd etmək istərdim ki, Ədibə xanım mənim üçün, elə kafedramızın əməkdaşları üçün də təvazökarlıq və sadəlik simvoludur. O, özünün mənəvi aləminin zənginliyi, həyata baxışları, xarakteri və səmimiyyəti ilə könüllərə bir dünya sevgi toxumu səpərək göyərtməyi bacaran bir insandır. Ədibə xanım xalqına bağlı olan, təmiz niyyətli insanlara xoş münasibət bəsləyən, rəğbətlə yanaşan, çətin anlarında onlara əl uzadan, yüksək intellektə malik səviyyəli və əqidəli insandır. Ən çətin və çıxılmaz anlarda belə bu böyük ürəkli xanımla görüşmək, bölüşmək adama mənəvi rahatlıq gətirir. Onu da mütləq qeyd etmək istəyirəm ki, Ədibə xanım öz yaşamında davranışlarıyla kollektivimizin hər bir üzvü üçün əxlaq və sevgi mücəssəməsidir. Bütün bu insani xüsusiyyətlər qeyd etdiyim kimi, nəsil-nəcabətdən irəli gəlir və bunlar onu yaxından tanıyan hər kəslə arasında qırılmaz bir bağ yaradır. Mən Ədibə xanımın doğulduğu ailəni əsl azərbaycanlı ailəsinə məxsus olan ənənələrin, mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olaraq həmişə vətənçilik əxlaqının güzgüsündə bütöv, sarsılmaz görmüşəm. Zənnimcə, onun təmsil olunduğu ailənin cəmiyyətdə böyük ehtiramla qarşılanmasının ən ümdə cəhəti də məhz budur.

Ədibə xanımdan danışarkən onun ömür-gün yoldaşı, mərhum Eldar Qasımovu da bu yazıda xatırlamaya bilmirəm. Mərd və nər kişilərdən olan Eldar Qasımov ailəsinə həssaslığı, can yanğısı, bağlılığı və bir çox keyfiyyətləri ilə yaxınlarının, dostlarının da böyük hörmətini qazanmışdı. Eldar müəllim ölkəmizin inkişafı naminə uzaq ölkələrdə məsul vəzifələrdə çalışdığı zaman Ədibə xanım zərif çiyinlərinə düşən ailənin yükünü dəyanətlə və məhəbbətlə çəkib, ayaqda dayanmağı bacarıb. Əslində o illərin çətinliyi, həsrət dolu günləri ona həm də həyatda mübariz olmağı öyrədib. Belə məqamlarda sevdiyi insana - ömür-gün yoldaşına sözün tam mənasında arxa-dayaq olması, əslində Azərbaycan qadınlarına xas olan ali keyfiyyətlər sırasındadır. Bütün bunları açmaq, təsvir etməkdə bəzən qələm də gücsüz olur. Ədibə xanım ən çətin günlərində belə, əsl Azərbaycan xanımına xas olan mətanəti, ailəcanlılığı, humanizmini qoruyub saxlamağı bacardı. Hətta bu keyfiyyətləri ilə o, yolundan azanlara dərs verdi, kimlərəsə təsəlli yeri oldu...

Bütün bunları gördükcə, duyduqca həmişə də taleyimə minnətdar olmuşam ki, həyatımın böyük bir dövründə onun rəhbərliyi altında çalışmışam və bu gün də çalışıram. Ədibə xanım bütün ictimai şüuru ilə xalqına bağlı olan, saf, təmiz niyyətli, yüksək intellektə malik kübar xanım, səviyyəli və əqidəli alimlərimizdəndir. İşgüzarlıq, tələbələrlə işləmək, onlara bilik verməklə yanaşı, hər birini həyata, gələcəyə hazırlamaq da Ədibə xanımı daim məşğul edən və bunları bir pedaqoq məsuliyyəti ilə daşıyan vətəndaşdır, elm adamıdır.

Ədibə Paşayeva kafedra rəhbəri kimi bütün tədbirlərdə kollektivlə bərabər zəhmət çəkir, hazırlıq prosesində incə bir detalı da nəzərdən qaçırmır. Mahir pedaqoq-alim hər gün müəllimlərin dərslərə hazırlığı, əhval-ruhiyyəsi, onların çap olunmuş və ya çapa hazırlanan elmi işləri ilə maraqlanır və əsərlərə öz rəyini bildirir. O, uzun illərdir rəhbərlik etdiyi kafedrada çox səmimi və gözəl bir mühit yaradıb. Onun təmkini, məntiqi fikirləri, mehribanlığı və səmimiyyəti, hər birimizin həyatına və ümumi işimizə, kafedranın inkişafına da müsbət təsirini göstərib.

Tələbələrinə əsl valideyn məhəbbəti ilə yanaşan Ədibə xanımın çox sahələrdə yetirmələri vardır və onlar bu gün çiçəklənən ölkəmizin inkişafında bacarıqla fəaliyyət göstərirlər... Şərəfli ömrünün nuru ilə işıqlanan həyatını elmə, təhsilə həsr edən bu gözəl insan düşünürəm ki, hər mənada bu dünyaya nümunə olmaq üçün gəlib. Bizlər - onu səmimi qəlbdən sevən həmkarları Ədibə xanımı etibarlı dost, güvən yeri bilirik. Odur ki, bütün məqamlarda, mürəkkəb vəziyyətlərdə onun məsləhətindən faydalanırıq. Hər birimizə bağlılığı, verdiyimiz qərarlara mükəmməl rəyi yekun qərarlarımıza hörmətlə yanaşması ona ehtiramımızı birə-beş artırır. O, təkcə kafedranın rəhbəri yox, həm də hər birimizin yaxını, doğmasıdır.



İnsanı həyatda tanıdan, sevdirən xüsusiyyətlər çoxdur. Bunlar kimisində az, bir başqasında isə bir qədər çox olur. Bu böyük ürəkli xanımda isə bütün insani keyfiyyətlər deyərdim ki, qədərincədir. Alicənablıq, təvazökarlıq, xeyirxahlıq, nəzakətlilik, həssaslıq, az sözlə çox mətləblərə aydınlıq gətirmək bacarığı Ədibə xanımı insanlara sevdirib sözü azdır, mən buna doğmalaşdırıb deyərdim. Onun, təkcə kafedramızın əməkdaşlarına deyil, ayrı-ayrı şəxslərə etdiyi xeyirxahlıqları xatırlayanda "ot kökü üstə bitər", el kəlamı yadıma düşür. Belə bir ürəyə sahib olan insanlar xalqın yaddaşında həmişəlik yaşayır. Eləcə də bütün müsbət keyfiyyətləri özünün işində, əxlaqında, davranışında göstərən bir şəxsiyyətə əvəzolunmaz insan deyirlər. Uzun illərin təcrübəsindən anlamışam ki, Ədibə xanım Paşayeva məhz belə nadir şəxsiyyətlərdəndir...

Ədibə xanımın geniş aspektdə elmi fəaliyyəti və nailiyyətləri dövlətimiz tərəfindən də qiymətləndirilib. O, "Əməkdar müəllim" fəxri adına layiq görülüb və "Tərəqqi" medalı ilə də təltif olunub.

Bu sətirləri qələmə aldığım məqamda mənə bir daha aydın oldu ki, Uca Yaradana, Vətənə, doğma ocağına, bir də sevdiklərinə tapınaraq Tanrının verdiyi ömrü şərəflə, ləyaqətlə yaşayan insanlar xoşbəxtdirlər. Belə bir bəxtiyarlıq içində yaşayan Ədibə xanım Paşayevanın işıq təki, nur kimi xalqın övladlarının yoluna saçıldığına bir daha şahid oldum.

Mən bu yazıda Ədibə xanım Paşayevanın insani keyfiyyətlərinə, bir azərbaycanlı qadını olaraq nəcibliyinə, səmimiyyətinə, dəyanətinə, humanizminə, qayğıkeşliyinə və bu sıradan bir çox xüsusiyyətlərini açmağa, diqqətə çatdırmağa üstünlük verdim... Çünki yaxşı adam olmaq, azərbaycançılıq məfkurəsini özünün həyat tərzində yaşada bilmək insanlığın naxışıdır...

Doğum gününüz mübarək olsun, dəyərli Ədibə xanım!..

**Sona ÇƏRKƏZ ,**
**Bakı Dövlət Universitetinin baş müəllimi,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü,**
**"Qızıl qələm" media mükafatı laureatı.**

# Bərdə: Təhsilə göstərilən qayğı bəhrə verir



Son illərdə respublikada bütün sahələrlə yanaşı, təhsil sahəsində də bir sıra möhtəşəm layihələr həyata keçirilir. Dövlətimizin başçısı İlham Əliyevin müvafiq sərəncamları ilə pedaqoji sahədə çalışanların işə qəbulunda şəffaflığın təmin olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi, ən əsası isə müəllimlərin əmək haqqının artırılması milli təhsilin keyfiyyətinə birbaşa müsbət təsir göstərir. Eyni zamanda Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkədə yüzlərlə qəzalı məktəb binaları əsaslı təmir olunmuş və ya yeni müasir standartlara cavab verən bütün zəruri avadanlıqlarla təchiz olunmuş, təhsil ocaqları inşa olunaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Həyata keçirilən bu məqsədyönlü tədbirlər savadlı kadrların yetişdirilməsində böyük əhəmiyyət kəsb edir.

Uzun illik pedaqoji təcrübəyə malik Əməkdar müəllim, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" medalına layiq görülmüş Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifovla həmsöhbət olduq. Müsahibim son illərdə milli təhsilin inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən irimiqyaslı layihələri yüksək qiymətləndirdi. O, qeyd etdi ki, Bərdə rayonunda bu layihələr daha mütəşəkkil qaydada həyata keçirilir. Məhz bunun nəticəsidir ki, rayonda hər il yüksək nailiyyətlər əldə olunur. Rayonda 74 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Məktəblərin böyük əksəriyyətinin maddi-texniki bazası yüksək səviyyədədir. 22 məktəb son 7 il ərzində tikilib və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Qalan məktəblərdə də yaxın gələcəkdə bu işlər həyata keçiriləcəkdir. Görülmüş tədbirlər nəticəsində əvvəllər təhsilin keyfiyyəti baxımından fərqlənməyən bir neçə məktəb son illərdə buraxılış imtahanlarının nəticələrində ali və orta ixtisas təhsil müəssisələrinə qəbulunda müsbət dəyişikliklər müşahidə olunur. 2018-2019-cu tədris ilində ümumtəhsil məktəbləri təhsildə uğurlu nəticələr əldə etmişlər. Məktəblərdə 22094 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2968 nəfər müəllim məşğul olmuşdur. Ötən tədris ili ilə müqayisədə müəllimlərin sayında 285, şagirdlərin sayında isə 986 nəfər artım müşahidə olunur. İlkin nəticələr onu deməyə əsas verir ki, ali məktəblərə qəbulda daha yüksək nəticələr əldə olunacaqdır. XI sinfi bitirən 1148 nəfərdən 810 nəfəri, yəni 70,6 faizi ali məktəblərə qəbul üçün sənəd vermişdir. Onlardan 608 nəfəri, yəni 75 faizi keçid balını toplamışlar.



Abituriyentlərdən 107 nəfəri 500-dən, 35 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Rayonda keçirilən fənn olimpiadalarında şagirdlərin əldə etdikləri nailiyyətlər ürəkaçandır. Heydər Əliyevin anadan olmasının 96-cı ili münasibəti ilə məktəb şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilmiş, akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin 11-ci sinif şagirdi Yusifli Pınar Səbutər qızı respublika müsabiqəsində qalib olaraq 1-ci yeri tutmuşdur. "Ədəbiyyat biliciləri" müsabiqəsinin respublika mərhələsində şəhər 8 saylı tam orta məktəbin 7-ci sinif şagirdi Rəhimli Aysel Rövşən qızı və Saatlı kənd tam orta məktəbin 9-cu sinif şagirdi Qasımova Rəvanə İlqar qızı rayon qalibi olmuş və respublika turunda uğurlu nəticə qazanmışlar. Fənn olimpiadalarının rayon mərhələsində 9 fənn üzrə iştirak etmiş IX-XI sinif şagirdləri arasından 72 nəfər şagird zona mərhələsinə vəsiqə qazanmışlar. Bu da ötən illə nisbətdə 21 nəfər çoxdur.

Rayonun bütün ümumtəhsil məktəblərində dərslər bir qayda olaraq hər gün pedaqoji və şagird heyəti tərəfindən Azərbaycanın Dövlət Himninin səslənməsi ilə təmin edilir. Rayonda mütəmadi olaraq "Fövqəladə hadisələrdən qorunaq" mövzusunda tədbirlər həyata keçirilir. Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin birgə razılaşmasına əsasən "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda keçirilən müsabiqədə şəhərin 3 N-li tam orta məktəbinin şagirdləri 1-ci və 2-ci yerə layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu ili "Nəsimi ili" elan etməsi ilə bağlı böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün Bərdə RTŞ-nin tədbirlər planı hazırlanmış, ona uyğun seminarlar, ədəbi-bədii gecələr, müsabiqələr, kitab və fotostendlər təşkil edilmişdir. 25.05.2019-cu il tarixdə "Nəsimi ili"nə həsr olunmuş intellektual oyun üzrə Mingəçevir şəhərində keçirilən regional çempionatda bərdəli şagirdləri təmsil edən komanda ikinci yerə layiq görülmüşdür.

Müsahibənin sonunda Rzaqulu Şərifov bildirdi ki, əldə olunan nailiyyətlər heç də pedaqoji kollektivdə əminlik yaratmır, növbəti illərdə daha yüksək nailiyyətlər əldə etmək qarşıda duran prioritet məsələlərdəndir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Fəxri mədəniyyət işçisi

Şuşa şəhəri işğal olunduqdan sonra Mərkəzi Kitabxana Sistemi (MKS) bir çox maddi və mənəvi çətinliklərə sinə gərərək respublika rəhbərliyinin və rayon icra hakimiyyətinin köməkliyi ilə hər cür təchizat və şəraiti təmin olmaqla Bakı şəhərində məskunlaşdı. Qeyd etmək lazımdır ki, qısa bir müddət ərzində MKS-in direktoru, Əməkdar mədəniyyət işçisi Gülsara xanımın təşkilatçılığı və gərgin əməyi nəticəsində respublikamızda fəaliyyət göstərən qabaqcıl MKS-lər sırasına çıxdı. Heç şübhəsiz ki, mərkəzləşmiş kitabxana sistemin belə bir fəaliyyətində sistemin işçilərinin hər birinin böyük əməyi vardır ki, onlardan da biri fəxri mədəniyyət işçisi Elmira Abdullayevadır.

Elmira xanım Tərtər rayonunda kolxozda işlədikdən sonra, öz arzusuna çatmaq üçün 1978-ci ildə Şuşa Pedaqoji məktəbin "Kitabxana işi" fakültəsinə daxil olmuş, 1980-ci ildə məktəbi bitirərək ixtisası üzrə Şuşa rayon MKS-də fəaliyyətə başlamışdır. O, 2014-cü ildən indiyədək MKS-in "Oxuculara xidmət şöbəsi"nin müdiri vəzifəsində çalışır. Elmira xanım kitabxana sistemində dövlət siyasətinin həyata keçirilməsi, kitabxana fondunun müasir informasiya daşıyıcılarının köçürülməsi, "gənc kadrların" hazırlanması, "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın rayon üzrə reallaşdırılması işində böyük xidmət göstərmişdir. O, işlədiyi kollektivdə, eyni zamanda rayon ictimaiyyəti arasında böyük hörmət qazanmışdır. Elmira xanım qabaqcıl fəaliyyət nəticəsində Şuşa Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunmuşdur. 2017-ci ildə Azərbaycan Respublikasının "Fəxri mədəniyyət işçisi" adına layiq görülüb. Bundan ruhlanan Elmira xanım daha həvəslə işləməyə başlamışdır. Onu da qeyd etmək lazımdır ki, Elmira xanım MKS-in ayrı-ayrı şöbələrinin təşkil etdiyi tədbirlərdə də fəallıq göstərir. MKS-in cari ildə təşkil etdiyi "Şəhidlər unuduilmur" adlı sərgi, "Yanvar gecəsi" mövzusunda kompozisiya, "Xalqımızın milli sərvəti" başlıqlı sərgi, "Ana dilim, yaşa, dilim" adlı kompozisiya, Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş "Dünya susmasın gərək" mövzusunda kompozisiya, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar "Tarixin dərsləri" adlı söhbət, aprel döyüşlərinə həsr olunmuş "Qəhrəmanlıq səlnaməsi" adlı "dəyirmi masa", "Şuşanı unutmayaq" adlı sərgi, "Şuşaya qayıdacağıq" mövzusunda şuşalılarla görüş, ulu öndərimiz Heydər Əliyevin 96-cı ildönümünə həsr olunmuş şeir müsabiqəsi və sair tədbirlərin təşkili və keçirilməsində Elmira Abdullayevanın böyük rolu və xidməti vardır.



**Zabit CAVADOV,**
**"Respublika".**

# Gədəbəydə ehtiyata buraxılmış gənclərin qarşılanma mərasimi

İyulun 16-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Gədəbəy rayon şöbəsinin təşkilatçılığı, rayon icra hakimiyyətinin, ehtiyata buraxılmış gənclərin valideynlərinin, veteranların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Silahlı Qüvvələr sıralarından ehtiyata buraxılmış hərbi vəzifəlilərin qarşılanma mərasimi keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Gədəbəy rayon mərkəzində yerləşən abidəsi önünə gül dəstələri qoyub və dərin ehtiramlarını bildiriblər. Sonra dahi şəxsiyyətin adını daşıyan mərkəzdə ulu öndərin həyat və fəaliyyətinə dair stendlərlə tanış olublar. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu prosesindən söz açıb, gəncləri müddətli həqiqi hərbi xidməti uğurla başa vurmaları münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzu edibdir.



SHXÇDX-nin Gədəbəy rayon şöbəsinin rəisi, polkovnik-leytenant Eldəniz Süleymanlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında daim güclənən Silahlı Qüvvələrimizin sıralarında xidmət edən hər bir gəncin bundan sonra da ölkəmizin inkişafı naminə çalışacağına əminliyini ifadə edib. Valideynlər adından çıxış edən Zakir Qasımov övladlarının hərbi xidməti uğurla başa vurması ilə fəxr etdiklərini bildirib, bu gün hər bir Azərbaycan vətəndaşının torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hazır olduğunu diqqətə çatdırıb.

Silahlı Qüvvələrdən ehtiyata buraxılmış Aqil Hüseynli Azərbaycan Silahlı Qüvvələri sıralarında xidmətin hər bir vətəndaş üçün şərəf olduğunu vurğulayıb. Tədbirdə, həmçinin hərbi vəzifəlilərə ehtiyatda xidmət haqqında məlumat verilib, onların hüquq və vəzifələri diqqətlərinə çatdırılıb. Sonda ehtiyata buraxılmış hərbi vəzifəlilərə müxtəlif qiymətli hədiyyələr təqdim olunub.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

# GÜCLÜ DÖVLƏTİN MÜASİR ORDUSU



**Tarix elmləri doktoru, professor, ehtiyatda olan polkovnik Mehman Süleymanov hərb tariximizin görkəmli araşdırıcılarındandır.**

**Bakı Dövlət Universitetini və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirən M.Süleymanov 1979-1983-cü illərdə Əfqanıstanda hərbi xidmətdə olub, 1992-2015-ci illərdə isə Azərbaycan Silahlı Qüvvələri sıralarında xidmət keçib. 10 il ərzində hərbi attaşe kimi ordumuzu ölkə xaricində təmsil edib.**

**1996-cı ildə Azərbaycan Ordusu sıralarında ilk dəfə elmlər namizədi, 2004-cü ildə isə yenə Azərbaycan Ordusu sıralarında ilk dəfə elmlər doktoru elmi dərəcəsi almış tarixçi alimdir.**

**"Azərbaycan Ordusu - 1918-1920", "Qafqaz İslam Ordusu və Azərbaycan", "Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi" (1-ci, 2-ci cildlər), "Azərbaycan hərb tarixi. Sovet dövrü" (1-ci, 2-ci cildlər), "Gülüstan müqaviləsi" (1-ci, 2-ci cildlər), "Türkmənçay müqaviləsi", "Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi", "Ali Baş Komandanın institutu", "Nadir Şah", "Şah İsmayıl Səfəvi" kitablarının müəllifidir.**

**2018-ci ildə onun Azərbaycan ordusunun 100 illik dövrünü əhatə edən fundamental araşdırması - "Azərbaycan Ordusunun tarixi" (5 cilddə) kitabı çapdan çıxıb.**

**Mehman Süleymanovdan aldığımız müsahibəni oxuculara təqdim edirik.**

**- Mehman müəllim, istərdim söhbətimizə ötən ay 101-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrinin yaranması, təşkilatlanması və tarixi əhəmiyyəti barədə fikirlərinizlə başlayaq...**

- Əvvəlcə qeyd edim ki, ötən əsrin ikinci onilliyinin sonlarında, imperialist qüvvələrin dünyanı yenidən bölüşdürmək uğrunda apardıqları mübarizə nəticəsində yaranmış son dərəcə gərgin beynəlxalq şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti kimi Şərq aləmində ilk demokratik dövlətin qurulması bütövlükdə xalqımızın şanlı tarixinin parlaq bir səhifəsini təşkil edir. Heç şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində dövlət quruculuğu sahəsində əldə edilmiş çox mühüm və tarixi nəticələrdən biri məhz Cümhuriyyət ordusunun yaradılması olmuşdur. Müasir ordumuzun sələfi kimi qəbul etdiyimiz bu ordunun formalaşdırılması, təşkilatlandırılması Azərbaycan xalqının dövlətçilik tarixində, Azərbaycanın hərb tarixində yeni bir mərhələnin başlanğıcını təşkil edir. Hər şeydən əvvəl ona görə ki, təxminən yüz illik fasilədən sonra xalqımız özünə məxsus ərazilərin bir hissəsində müstəqil dövlətçiliyini bərpa etdi və onun mühüm atributu kimi milli ordu quruculuğunun əsası qoyuldu. Cümhuriyyət ordusunun yaradılması həm də Azərbaycanda müstəqil nizami ordu quruculuğunun başlanğıcını qoydu. Ən başlıcası isə, Azərbaycan xalqının müstəqillik və qəhrəmanlıq tarixinə son dərəcə şərəfli, bugünkü və gələcək nəsillərin hər zaman qürurla xatırlayacağı və istinad edə biləcəyi bir səhifə yazıldı. Azərbaycan xalqı bir daha sübut etdi ki, dünya tarixində dərin izlər buraxmış qəhrəmanlıq ənənələrini davam etdirməyə layiq və qadirdir. Odur ki, qısa müddət ərzində, özü də zəruri bazanın olmadığı çox mürəkkəb hərbi-siyasi-iqtisadi şəraitdə döyüşkən bir ordunu formalaşdırmaq mümkün oldu. Cümhuriyyət ordusu quruculuğunun təcrübəsi və ənənələri bu gün də öz dəyərini itirməmiş və heç zaman da itirməyəcəkdir. Məhz buna görə də bir əsr əvvəl əsası qoyulmuş ordunun Azərbaycanın dövlətçilik və hərb tarixində xüsusi yeri və əhəmiyyəti vardır.

**- Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu prosesi zamanı ilk növbədə hansı prinsiplərə, amillərə və şərtlərə üstünlük verildiyini qeyd etmək olar?**

- Hər şeydən əvvəl, milli ordu quruculuğu milli dövlət quruculuğunun tərkib hissəsi idi. Bu məqsədlə əsaslandırılmış Dövlət Proqramı qəbul edilmişdi. Ordu quruculuğu dövlətin rəhbəliyi, himayəsi və qayğısı altında aparılırdı. Bu mənada ordu-dövlət münasibətləri dəqiqliklə müəyyənləşdirilmişdi və ordu siyasətdən tam kənar saxlanılırdı.

İkincisi, Azərbaycan dövlətinə, onun müstəqilliyinə sədaqətli, hazırlıqlı milli zabit kadrları korpusunun formalaşdırılması ordu quruculuğunun hərəkətverici qüvvəsi sayılırdı. Bu mənada ilk növbədə, sözsüz ki, tam artilleriya generalı Səməd bəy Mehmandarovla tam artilleriya generalı Əliağa Şıxlinskinin tarixi fəaliyyəti hər zaman xalqımız tərəfindən minnətdarlıqla xatırlanacaqdır. Onlar ordunun təşkilatlanması və döyüşkən bir qüvvəyə çevrilməsi məqsədilə öz ətraflarına bu yolda əsl fədakarlıqlar göstərmiş bir çox milli zabit və generalları toplaya bilmişdirlər: Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, Həmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski, Teymur bəy Novruzov, Xosrov Mirzə Qacar, Davud bəy Yadigarov, İbrahim ağa Usubov və başqaları...

Hökümət orqanları ilə Hərbi Nazirlik arasındakı qarşılıqlı əlaqələrin səmərəli qurulması da mühüm amillərdən idi. Müvafiq nazirliklər və qurumlar çağırış işinin təşkilində, fərariliyə qarşı mübarizədə, təchizat məsələlərinin həllində səmərəli fəaliyyət göstərirdilər.

Çox mühüm amillərdən biri kimi, ordunun milli-mənəvi dəyərlər əsasında qurulmasını qeyd etmək olar. Xidmətə gələn hər bir zabit və əsgər bilirdi ki, o, Cümhuriyyətin müstəqilliyinin müdafiəsinə xidmət edir. Bu isə həm də müstəqilliyin qurucusu olan Azərbaycan xalqının milli dəyərlərinə ehtiram göstərilməsini tələb edirdi. Rəsmi dil kimi Azərbaycan dili qəbul edilmişdi. Hər bir qeyri-azərbaycanlı zabit qarşısında qısa müddət ərzində milli dilin öyrənilməsi və əsgərlərlə yalnız Azərbaycan dilində ünsiyyət qurulması tələbi qoyulmuşdu. Qoşunların şəxsi heyəti arasında Azərbaycan xalqının qəhrəmanlıq tarixi təbliğ edilir, əsgərlər hər gün milli dildə yazılmış marşları səsləndirirdilər. Savadsızlığın ləğvi üçün Azərbaycan dili dərsləri təşkil edilmişdi. Ordunun hərbi geyimlərinin milli nümunələri yaradılmışdı və bu nümunələrin mühüm göstəricilərindən biri də poqonlar üzərində "Azərbaycan" sözünün yazılması idi. Qoşunların məişət həyatı xalqın məişət həyatına yaxınlaşdırılmışdı. Belə ki, orduda əsasən milli yeməklərin hazırlanmasına üstünlük verilirdi.

Nəhayət, qeyd etmək lazımdır ki, ordu quruculuğu prosesində dünya təcrübəsinə əsaslanılsa da, bu məqsədlə milli qanunvericilik bazası yaradılmışdı. Parlamentin mövcud olduğu 15 ay ərzində 10-dan artıq qanun və qərar qəbul edilmiş və respublikadakı mövcud hərbi şərait vaxtaşırı parlamentin müzakirəsinə çıxarılmışdı. Bu istiqamətdə fəaliyyətin səmərəli təşkili üçün parlamentin Hərbi komissiyası yaradılmışdı və qanunlar bu komissiya tərəfindən müzakirələrə hazırlanırdı.

**- Çox qısa bir müddət ərzində formalaşmış Cümhuriyyət ordusu dövlətimizin müdafiəsi, torpaqlarımızın bütövlüyü uğrunda hansı nailiyyətlərə nail ola bildi?**

- Xalq Cümhuriyyətinin elan olunduğu gündən onun silahlı müdafiəsinə tarixi zərurət yaranmışdı. Lakin həm müstəqilliyimiz, həm də xalqımızın mövcudluğuna yönəlmiş təhlükənin qarşısının alınması üçün kifayət qədər yetərli müdafiə qüvvələri hələ yox idi. Odur ki, hökümət qardaş Osmanlı dövlətindən hərbi yardım istəmək məcburiyyətində qaldı. Hər iki ölkənin hərbi qüvvələrinin bazasında yaradılan Qafqaz İslam Ordusu 1918-ci ilin iyun-sentyabr ayları ərzində uğurlu döyüş əməliyyatları nəticəsində Qarabağı, Azərbaycanın digər işğal olunmuş ərazilərini və Bakı şəhərini erməni-daşnak qüvvələrindən azad etdi, bu bölgələrdə hökümətin nəzarətini bərqərar etdi.

Məlum tarixi səbəblərə görə, Qafqaz İslam Ordusu ləğv edildikdən sonra müstəqilliyimizin və ərazi bütövlüyümüzün müdafiəsi bütünlüklə milli qüvvələrin üzərinə düşdü. 1919-cu ilin yazından həmin ilin sonuna qədər Denikin qoşunlarının hücum təhlükəsinin qarşısının alınması üçün Cümhuriyyət ordusu çox ciddi sınaqlarla qarşılaşmalı oldu. Ölkənin şimal sərhədlərində hərbi qüvvələr cəmləşdirildi, Bakı və Abşeron yarımadasının müdafiə sistemi yaradıldı. Eyni zamanda, erməni-daşnak təcavüzkarlığına qarşı lazımi tədbirlər həyata keçirildi. 1919-cu ilin avqustunda ordu qüvvələri Lənkəran istiqamətində hərbi yürüş edərək bu bölgəni müstəqilliyə yad qüvvələrdən təmizlədi, həmin ilin noyabr ayında isə Zəngəzurda erməni-daşnak qüvvələrinə qarşı uğurlu döyüş əməliyyatı keçirildi.

Nəhayət, 1920-ci ilin Novruz bayramı günləri Qarabağa kütləvi hücum təşkil etmiş düşmən qüvvələrinin təcavüzünün qarşısının alınması... Səməd bəy Mehmandarovun və onun həmkarlarının fədakarlığı nəticəsində bu bölgə bütünlüklə erməni-daşnak qüvvələrindən təmizləndi və Qarabağın Azərbaycandan qoparılmasına imkan verilmədi. Amma çox təəssüf ki, Cümhuriyyətin əsas hərbi qüvvələrinin Qarabağ cəbhəsinə cəlb edilməsi, buradakı döyüşlərdə verilən itkilərin bərpasına vaxt qalmaması şimaldan başlanan bolşevik işğalının qarşısının alınmasını mümkünsüz etdi. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdiyi kimi, onun ordusunun təşkilatlanmasına da son qoyuldu...

**- Nəhayət, tale Azərbaycan xalqının üzünə bir də yetmiş il sonra güldü...**

- Bəli, imperiya siyasəti uzun onilliklər ərzində xalqımızın qəlbində yaşayan suverenlik arzusunu söndürə bilmədi. Ötən əsrin 80-ci illərinin sonlarında başlanan milli azadlıq hərəkatı müstəqilliyimizin bərpası ilə başa çatdı. Milli dövlət quruculuğu işlərinə başlanıldı. Bu sırada Azərbaycan Silahlı Qüvvələrinin yaradılması da önəmli yer tuturdu. Lakin təəssüf ki, o dövrkü hakimiyyətin səriştəsizliyi üzündən bu sahədə səmərəli işlərin görülməsi mümkün olmadı. Bir tərəfdən qonşu Ermənistanın ölkəmizə qarşı apardığı işğalçılıq siyasəti, digər tərəfdən isə ölkədə yaranmış hakimiyyət boşluğu, anarxiya, hərc-mərclik, özbaşınalığın hökm sürməsi və s...

Azərbaycanda əsl ordu quruculuğu prosesinin başlanması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışı həm Azərbaycan dövlətçiliyini, həm də Azərbaycan ordusunu süqutdan xilas etdi. Həmin il noyabrın 2-də ümummilli liderin radio və televiziya ilə xalqa müraciəti ictimaiyyət arasında geniş rezonans doğurdu. Daha sonra Əfqanıstan veteranları, müxtəlif ictimai birliklərin, xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşlər bu işdə böyük bir canlanmaya səbəb oldu. Beləliklə, Rusiyadan, digər MDB ölkələrindən milli zabit kadrları respublikamıza qayıtdı. Yüzlərlə, minlərlə vətənpərvər oğul könüllü olaraq ordu sıralarına yazıldı.

Bu dövrdə ümummilli lider Heydər Əliyev tərəfindən ordu quruculuğunun əsaslandırılmış siyasəti hazırlandı. Orduya vahid və mərkəzləşdirilmiş rəhbərlik təmin edildi, bu proses dövlət rəhbərliyinin ciddi nəzarəti altına götürüldü, ordudakı yararsız idarəetmə strukturları, o cümlədən siyasi qüvvələrin nəzarəti altında olan hərbi strukturlar ləğv edildi, xalqın potensial gücü orduya istiqamətləndirildi. Ordunun sağlamlaşdırılması siyasəti bütün xalq tərəfindən dəstəkləndi və bu siyasətin nəticəsi dərhal özünü göstərməyə başladı. Belə ki, 1994-cü il yanvar ayının əvvəllərində Azərbaycan Ordusunun yenidən formalaşdırılan qüvvələri Füzuli rayonu ərazisində hücuma keçərək 42 km-lik məsafədə torpaqlarımızı və Horadiz qəsəbəsi də daxil olmaqla 22 yaşayış məntəqəsini düşmən tapdağından azad etdi.

Atəşkəsin əldə edilməsi ordu quruculuğunun ahəngdarlığına zəmin yaratdı və bu prosesin səmərəliliyini daha da artırdı. Ordunun möhkəmləndirilməsi üçün lazımi tədbirlər görüldü. Bu siyasətin həyata keçirilməsinin əməli işləri də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ordunun maddi-texniki təminatına diqqət artırıldı, onun beynəlxalq əlaqələri gücləndirildi, kadr hazırlığı dünya standartları səviyyəsinə qaldırıldı. Ulu öndər tərəfindən Azərbaycanda milli hərbi təhsilin mükəmməl sistemi yaradıldı, ordu daxilindəki islahatlar dərinləşdirildi. Əslində Heydər Əliyev yeni, müasir ordu quruculuğu prosesinin əsasını qoydu, onun istiqamətlərini müəyyənləşdirdi. Bu siyasətin dövlət tərəfindən fəaliyyət proqramına çevrilməsi və xalqın dəstəyi ilə qarşılanması Azərbaycanda yeni və güclü bir ordunun təməli ni qoydu.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasətinin onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilməsi bugünkü güclü Azərbaycan Ordusunun yaradılmasına gətirib çıxardı...

**- Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri barədə nə demək olar?**

- Bu əlaqələrin yaranma tarixi 1990-cı illərin ortalarına gedib çıxır. Belə ki, 1994-cü il may ayının 4-də ulu öndər Heydər Əliyevin "Sülh Naminə Tərəfdaşlıq" Çərçivə sənədini imzalaması ilə Azərbaycanla NATO arasında əməkdaşlığın əsası qoyulmuşdur. Bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi Proqramı"na, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşulmağımız ölkəmizdə ordu quruculuğu prosesinin sürətlə təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdiril- məsinə, müasir beynəlxalq standartlara uyğunlaşdırılmasına təkan vermişdir. Minlərlə hərbçimiz adıçəkilən və digər proqramlar çərçivəsində keçirilən əməkdaşlıq tədbirlərində yaxından iştirak etmiş, ən son hərbi yenilikləri və döyüş texnikalarından istifadə qaydalarını mənimsəmişlər. Yeri gəlmişkən, 1997-ci ildən etibarən ölkəmizin hərbi təhsil müəssisələri NATO standartlarına uyğunlaşdırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri çoxmillətli qüvvələrin tərkibində Kosovo vilayətində, İraqda və Əfqanıstanda keçirilən beynəlxalq sülhyaratma əməliyyatlarında iştirak etmişdir. Öz missiyasını lazımi səviyyədə yerinə yetirən hərbçilərimizin xidməti NATO rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Son illər ərzində Silahlı Qüvvələrimizin beynəlxalq əlaqələri kifayət qədər genişlənmişdir. Müdafiə Nazirliyi Avro-Atlantik strukturları ilə, ikitərəfli və çoxtərəfləri formatda region və regiondankənar ölkələrlə, beynəlxalq hərbi-siyasi təşkilatlar və xarici dövlətlərin müdafiə sənaye kompleksləri ilə davamlı şəkildə əməkdaşlıq edir. 30-dan artıq ölkə ilə hərbi əməkdaşlıq sahəsində hökümətlərarası və qurumlararası yeni hüquq-müqavilə sənədləri imzalanmış, bəzi ölkələrlə isə oxşar müqavilə sənədlərinin imzalanmasına dair müzakirələr aparılır. Bir sıra xarici ölkələrlə uğurlu ikitərəfli əməkdaşlıq qurulmuşdur. Onların arasında Türkiyə Cümhuriyyət xüsusi yet tutur.

**- Təqdirəlayiq bir hal kimi, Silahlı Qüvvələrimizin yerli istehsal olan döyüş silahları ilə təmin edilməsi istiqamətində görülən işlərdən danışmaq da yerinə düşərdi...**

- Müharibə şəraitində yaşayan ölkənin öz müdafiə potensialını gücləndirməsi təbii və zəruri bir prosesdir. Bu məsələ daim dövlətimizin diqqət mərkəzindədir. Ordumuzun xaricdən alınan müasir, modern silah və texnika ilə təmin olunması nə qədər vacibdirsə, bu istiqamətdə yerli istehsalın təşkili də o qədər əhəmiyyətlidir. Fəxrlə deyə bilərik ki, bu gün silah arsenalımız həm də ölkə istehsalı olan ən müasir silah və texnikalarla zənginləşdirilməkdədir. Bu məqsədlə hələ 2006-cı ilin sonlarında yaradılan müdafiə sənayesi qısa müddət ərzində sürətli inkişaf yolu keçmiş, silah və texnika istehsalı sahəsində ən son texnologiyalar mənimsənilmişdir. Hazırda Müdafiə Sənayesi Nazirliyinin 20-dən artıq müəssisəsində 1200-dən çox hərbi təyinatlı məhsul istehsal edilir. Ordumuzun ehtiyacının mühüm bir qismi məhz bu məhsullar hesabına ödənilir.

Sevindirici haldır ki, Azərbaycan hazırda həm də silah və hərbi təyinatlı məhsul ixrac edən ölkəyə çevrilmişdir. Müdafiə sənayemizin məhsulları respublikamızda keçirilən ADEX-2014, ADEX-2016, ADEX-2018 sərgilərində müntəzəm nümayiş etdirilmişdir. Eyni zamanda, bu silahlara xarici ölkələrdə keçirilmiş sərgi-yarmarkalarda da geniş maraq göstərilir.

Yeri gəlmişkən qeyd edək ki, Silahlı Qüvvələrimizin ildönümü ərəfəsində Müdafiə Sənayesi Nazirliyi Moskvada RF Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən "ARMY-2019" Beynəlxalq Hərbi-Texniki Forumunda iştirak etdi. Dünyanın ən böyük silah və hərbi texnika sərgilərindən birinə çevrilən bu forumda ölkəmiz ilk dəfə stendlə təmsil olunaraq hərbi məhsullarını nümayiş etdirdi. Bu məhsullar əsasən ixracyönümlü məhsullardır. Onu da nəzərə çatdıraq ki, "ARMY-2019" sərgisi Müdafiə Sənayesi Nazirliyinin son iki ayda stendlə təmsil olunduğu üçüncü beynəlxalq sərgi idi. Bu ilin aprel-may aylarında Müdafiə Sənayesi Nazirliyi Türkiyədə "İDEF-2019" və Belarusda "MİLFX-2019" sərgisində hərbi təyinatlı məhsullarını nümayiş etdirib.

**- Mehman müəllim, Silahlı Qüvvələrimizin bugünkü döyüş hazırlığı səviyyəsini necə qiymətləndirərdiniz?**

- Tam əminliklə demək olar ki, bu gün Azərbaycan Ordusu özünün şərəfli tarixini, əsl yüksəliş dövrünü yaşayır. Ölkəmiz hərtərəfli inkişaf etmiş güclü dövlət olduğu kimi, güclü də ordu yarada bilmişdir. Silahli Qüvvələrimizin maddi-texniki bazası tamamilə yenilənmiş, ən müasir silah və texnika ilə təchiz olunmuş və bu proses hazırda da davam etməkdədir. Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq keçirilən hərbi təlimlər ordunun şəxsi heyətinin müasir döyüşlərin ən mürəkkəb tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir olduğunu nümayiş etdirir, ordunun döyüş qabiliyyətini və peşəkarlığını artırır, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə bacarığını daha da təkmilləşdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu siyasətinə yaradıcı yanaşılmasının və bu prosesin dövlətin iqtisadi imkanları ilə düzgün uzlaşdırılmasının nəticəsidir ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bunu beynəlxalq ekspertlər də təsdiq edirlər. Cənab İlham Əliyevin prezidentliyi dövründə hərbi büdcəmiz 15 dəfədən çox artmışdır. Milli ənənələrə dayanmaqla dünya təcrübəsinin öyrənilməsi, NATO kimi hərbi-siyasi qurumla, eləcə də bir sıra digər ölkələrlə hərbi sahədə əməkdaşlığın uğurla davam etdirilməsi ordumuzun gücünü və təcrübəsini daha da artırmışdır. Heç də təsadüfi deyil ki, 2016-cı ilin aprelində erməni hərbi qüvvələrinin təxribatlarına cavab verərkən Azərbaycan Ordusunun hissə və bölmələri çox mühüm qələbə əldə etdilər. 2018-ci ilin mayında bu uğurlar davam etdirilərək Naxçıvan Muxtar Respublikasının düşmən nəzarətində olan 11 min hektar torpaq sahəsi işğaldan təmizləndi.

Bu uğurlar əslində, Azərbaycan Ordusunun böyük uğurlarının başlanğıcıdır. İndi kimsədə şübhə yoxdur ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında inkişafının zirvəsində olan Azərbaycan Ordusu ölkəmizin işğal altında olan bütün ərazilərini azad etməyə qadirdir.

**- Hazırda islahatlar dövrünü yaşayan ölkəmizdə həyatın bütün sahələrində mühüm dəyişikliklər baş verməkdədir. Bu islahatlar yəqin ki, Silahlı Qüvvələrimizdən də yan keçmir...**

- Bəli, ordumuzda davam edən islahatlar artıq yekunlaşmaq üzrədir. Əldə edilən nəticələr həm Azərbaycan xalqı, həm də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilir. Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun bəyan etdiyi kimi, Azərbaycan ordusu yeni, müasir silahlarla artıq tam şəkildə təmin edilib. 2019-cu ildə aparılan islahatların əsas istiqamətlərindən biri, ordunun idarə olunmasının təkmilləşdirilməsidir. Bu sahədə qarşıya qoyulan mühüm vəzifə bütün hissə və birləşmələrin fasiləsiz, məxfi, operativ şəkildə idarə olunmasını təmin etməkdir. Məqsədə nail olunması üçün ən müasir texnika bu işlərə cəlb edilir, müasir komanda-idarəetmə sistemi qurulur. İndi ordunun hərbi hissələri "onlayn" qaydada idarə edilir. Artıq tabor səviyyəsinə qədər olan bölmələrdə "onlayn" idarəetmə tətbiqinə nail olunmuşdur. Azərbaycan Ordusu aparıcı dövlətlərin təcrübəsindən və texnikasından istifadə edərək bu məsələnin böyük ölçüdə həllini təmin edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, biz ordunun inkişafı üçün lazım olan işləri bundan sonra da davam etdirəcəyik.

**Müsahibəni apardı:**
**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# Vətənpərvər ziyalı ömrü



**Ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında bir çox sahələrdə istedadlı, bacarıqlı gənclərin üzə çıxarılması, onların potensiallarının, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi demək olar ki, ənənə halını almışdı.**

Ölkənin əsas ali orqanlarından biri olan Dövlət Təhlükəsizlik orqanlarına təyinat isə daha ciddi, daha məsuliyyətlə aparılırdı. Çünki vətənini sevmək, ona ürəkdən bağlanmaq, onun dilinə, mədəniyyətinə, tarixinə, dünəninə, bu gününə, sabahına sahib çıxmaq, dövlətinə, xalqına sədaqətlə, şərəflə xidmət etmək hər kəsin bacardığı iş deyil. Gərək döyüş, mübarizə o kəsin taleyinə yazılsın, haqq-ədalət, sakit, firavan həyat üçün canından belə keçməyə hazır olsun...

Adil Babaşov 1943-cü ildə Cəlilabad rayonunun Xanılı kəndində kolxozçu ailəsində anadan olub. Öz dövrünün insanları kimi, onun da uşaqlığı, gəncliyi çətin vaxtlara düşmüşdü. Kiçik yaşlarından valideynlərini itirmiş, qardaşı Səfərin himayəsində böyümüşdü. Çörəyin belə tapılmadığı zamanlarda oxumaq həvəsi olan bir uşaq üçün həyat əlçatmaz arzulardan ibarət idi. Odur ki, orta məktəbi bitirdikdən sonra Bakıya üz tutan Adil Bakı Baş Tunel İdarəsində fəhlə-çilingər işləməyə başlayır.

1962-ci ildə hərbi xidmətə çağırılanda 19 yaşı var idi Adilin. Almaniya Demokratik Respublikasında hərbi xidmət keçən Adil orada hərbi məktəbi əla qiymətlərlə başa vuraraq taqım komandiri vəzifəsinə təyin olunur. 1965-ci ildə hərbi xidmətini şərəflə yerinə yetirərək partiya bileti, medal, təşəkkürnamə və əla xasiyyətnamə ilə vətəninə dönür. Artıq oxumaq, ali təhsil almaq Adil üçün əlçatmaz arzu deyildi. O, qısa müddətdə hazırlaşaraq sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə verir. Və tələbə adını qazanır.

Günlərin birində isə Dövlət Təhlükəsizlik orqanlarından gələn bir məktub Adilin həyat yoluna işıq salır. O illəri A.Babaşov belə xatırlayır: "Həmin gün Dövlət Təhlükəsizlik İdarəsinə getdim. Orada məni idarənin milliyyətcə rus olan işçisi qarşıladı və daxili telefonla danışaraq bir nəfərin yanına apardı. İş otağına daxil olanda onun ümummilli liderimiz Heydər Əliyev olduğunu gördüm. O, məni çox səmimi qəbul edərək xeyli sorğu-sual etdi və dedi: "Dövlət Təhlükəsizlik orqanlarında fəhlə-kəndli sinfindən olan belə kadrlar lazımdır". Gördüklərimə, duyduqlarıma inana bilməsəm də, elə o vaxtdan - 1966-cı ildən ulu öndərin göstərişi ilə Dövlət Təhlükəsizlik orqanlarında işə başladım. O gündən bu günə 32 il dövlətimə sədaqətlə, şərəflə xidmət etmişəm. Ulu öndərin mənə inanıb, məsuliyyətli bir sahədə qulluq etməyi etibar etməsini ömrüm boyu fəxr saymışam və hər zaman bu etimadı doğrultmağa çalışmışam". Şərəf, şan-şöhrət insana elə-belə gəlmir, insan onu özü qazanır. Lakin insanın qanına-canına hopmuş elə keyfiyyətlər də var ki, o, insanın özü ilə birgə doğulur və zaman-zaman bu keyfiyyətlər insanı ucaldır, ona başucalığı gətirir. Doğruluq, dürüstlük, sədaqətlilik, adillik və s. kimi keyfiyyətləri Adil Babaşovun mənəviyyatını zənginləşdirib, onu hər zaman tanıyanlara sevdirib. Ürəyi Vətən üçün döyünüb, Vətən üçün vurub həmişə.

Tanrının yazdığı ömür payının 32 ilini Milli Təhlükəsizlik orqanlarında xidmət etmiş, polkovnik-leytenant Adil Babaşovun gənclərimizin vətənpərvərlik, dövlətçiliyimizə sədaqət ruhunda tərbiyə edilməsində, peşəkar kadrların yetişdirilməsində yüksək idarəetmə bacarığına sahib rəhbər kimi əvəzsiz xidmətləri var. O, harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, öz davranışı, işə münasibəti, ciddiliyi, eyni zamanda sadəliyi, ürəyinin təmizliyi ilə nümunə olub, etimad qazanıb.

Vaxtilə Neftçala Rayon Seçki Komissiyası tərəfindən rayon sovetinə deputat seçilməsi də bu inam, bu etimadın nümunəsi idi. O, çalışdığı, məsuliyyətli, çətin və olduqca şərəfli bir sahədə özünü bacarıqlı, yüksəkixtisaslı mütəxəssis kimi sübut etmiş, qazandığı müvəffəqiyyətlərə, nailiyyətlərə görə dövlət mükafatı, medal, döş nişanları ilə təltif edilmişdir.

Qarabağ müharibəsi iştirakçısı, 1988-ci ildən Silahlı Qüvvələr veteranı olan Adil Babaşov 20 ildən çoxdur ki, Respublika Veteranlar Təşkilatında baş mütəxəssis vəzifəsində çalışır. Şərəf və ləyaqəti ilə vətəninə xidmət edən, dövlətimiz, dövlətçiliyimiz üçün yüksək amallar uğrunda mübarizə aparan Adil Babaşov bu gün də işlədiyi təşkilatın ictimai-siyasi həyatında gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi işlərində fəal iştirak edir.

Mənalı, şərəfli həyatı dövlətimizə, dövlətçiliyimizə sədaqətlə xidmət etməkdə, özünün xoşbəxtliyini xalqının firavan yaşamasında, cəmiyyətimiz üçün sağlam ruhlu gənclərin yetişdirilməsində görən Adil Babaşova ziyalı, vətənpərvər ömür yolunda uğurlar arzulayırıq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi tərəfindən 2019-cu il üzrə dövlət büdcəsi vəsaiti hesabına Səhiyyə Nazirliyinin tabeçiliyində olan və mərkəzləşmiş tədbirlər büdcəsindən maliyyələşən tibb müəssisələrini dərman vasitələri, sarğı ləvazimatları və materialları ilə təmin etmək məqsədilə potensial imkanlara (işçi qüvvəsinə, təcrübəyə, aidiyyəti ixtisasa, maliyyə və texniki imkanlara) malik olan hüquqi və fiziki şəxsləri

Açıq tenderə dəvət edir.

Lot 1 - Şəkərli diabet və 2016-2020-ci illər üçün Hemofiliya xəstələri üzrə Dövlət və Tədbirlər proqramlarına uyğun nəzərdə tutulmuş dərman və tibbi təyinatlı vasitələrin satınalınması.

Lot 2 - Müalicə-profilaktik müəssisələrinin təminatı üçün zəruri olan və bəzi Dövlət və Tədbirlər proqramlarına uyğun nəzərdə tutulmuş dərman və tibbi təyinatlı vasitələrin satınalınması.

Lot 3 - Müalicə-profilaktika müəssisələrinin təminatı üçün zəruri olan və bəzi Dövlət və Tədbirlər proqramlarına uyğun nəzərdə tutulmuş diaqnostikada istifadə olunan tibbi vasitələrin və digər tibbi təyinatlı vasitələrin və ləvazimatların satınalınması.

Tender təklifləri "bal" sistemi üsulu ilə qiymətləndiriləcəkdir. Üstünlük veriləcək meyarlar: ən səmərəli qiymət, yüksək keyfiyyət və qrafikə uyğun malların təhvil verilməsi.

Malların təchizat qrafiki 15.09.2019-cu ildən 31.12.2019-cu il tarixə kimi nəzərdə tutulmuşdur.

Tenderdə iştirak etmək istəyənlər 21 avqust 2019-cu il saat 17:00 tarixə kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

-Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;

-İştirak haqqının ödənilməsi barədə bank sənədi;

-İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;

-İddiaçının hüquqi statusunu təsdiq edən sənədlər; - qeydiyyatdan keçdiyi ölkə, qeydiyyat şəhadətnaməsinin, nizamnamənin, lisenziyanın notarial təsdiq olunmuş surətləri, hüquqi ünvanı və bank rekvizitləri

-İddiaçının potensial imkanlarının olması haqqında arayış;

-Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olub-olmaması barədə arayış.

-Tender komissiyasının zəruri saydığı digər arayış və sənədlər;

Tenderdə iştirak haqqı ödəməsinə baxmayaraq rəsmi müraciət etmiş iddiaçıların ixtisas uyğunluğu ilkin qiymətləndirilərək yalnız tender predmetini əhatə edən və ixtisası uyğun olan iddiaçılara əsas şərtlər toplusu veriləcəkdir. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır.

Tenderdə iştirak haqları aşağıdakı kimi müəyyənləşdirilmişdir.

1-ci Lot - 700 manat, 2-ci Lot - 700 manat, 3-cü Lot - 800 manat,

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

Alan: Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzi

AZ 91 CTRE00000000000002128215(002741)
Fond 7 maddə 142340
VÖEN 1300242201
Dövlət Xəzinədarlıq Agentliyi
VÖEN: 1401555071
M/h AZ41NABZ 01360100000000003944
Kod 210005
SWİFT Bik CTREAZ 22

İddiaçılar Azərbaycan dilində hazırladıqları tender təkliflərini və təklifin 1 (bir) faizi məbləğində Bank təminatını (təklif zərfləri açıldığı gündən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır) bağlı zərfdə 29 avqust 2019-cu il tarixdə saat 18:00-a qədər Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzinə (ünvan: Xocasən qəsəbəsi Hacıhəsən şos. 3 Tel: 346-11-33, faks 346-03-16) təqdim etməlidirlər.

Gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi bir ədəd əsli, bir ədəd surəti ikiqat zərfə daxil edilərək imzalanmış, möhürlənmiş şəkildə olmalıdır. Zərfin üzərinə 30 avqust 2019-cu il tarixdə saat 15:00-a kimi açılmamalıdır" sözləri yazılmalıdır. Tender təklifləri açıldığı gündən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Tender təklifləri olan zərflər 30 avqust 2019-cu il tarixdə saat 15:00-da Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzində açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumat
www.tender.gov.az
İnternet saytında yerləşdirilmişdir.

# Novoivanovka, Şahdağ və Çiçəkli kəndlərində qaz xətti istismara verildi

**Novoivanovka, Şahdağ və Çiçəkli kəndlərində qaz xətti istismara verilməsi münasibətilə tədbir keçirilmişdir.**





Tədbirdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev çıxış edərək qeyd etmişdir ki, hazırda Azərbaycanın bütün bölgələrində olduğu kimi, Gədəbəy rayonu da inkişaf mərhələsindədir. Əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən xeyli işlər görülür. RİH başçısı onu da qeyd etmişdir ki, son illərdə respublikamızda, eləcə də rayonumuzda dövlət qayğısının nəticəsi olaraq əhalinin həyat şəraitinin yaxşılaşdırılması baxımından, problemlərin aradan qaldırılması üçün xeyli işlər görülmüşdür. RİH başçısı kənd və qəsəbələrin qazlaşdırılması istiqamətində görülmüş məqsədyönlü tədbirlərdən danışmış və qeyd etmişdir ki, təbii qaz olmayan yaşayış məntəqələrinin sürətlə mavi yanacaqla təmin olunması xalqımızın rifah halının daha da yaxşılaşmasına xidmət edir. Bu gün 3 yaşayış məntəqəsində 941 ev təbii qazla təmin olundu və yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində həyata keçirilən işlər bundan sonra da davam etdiriləcəkdir. Çıxışının sonunda Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə diqqət və qayğıya görə rayon əhalisi və öz adından minnətdarlığını bildirmişdir.

Gədəbəy rayonunun Novoivanovka, Şahdağ və Çiçəkli kəndlərinə təbii qazın verilməsi sakinlərin böyük sevincinə səbəb olmuşdur. Tədbirdə çıxış edən sakinlər kəndlərə təbii qazın verilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# Ölkəmizdə heyvan xəstəliklərinə nəzarətin yaxşılaşdırılması üçün yeni layihənin icrasına başlanılır

**İyulun 17-də Qida Təhlükəsizliyi Agentliyi BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birlikdə Azərbaycanda heyvan xəstəliklərinə nəzarətin təkmilləşdirilməsi məqsədilə milli potensialın gücləndirilməsi sahəsində "Xəstəliklərə nəzarət və baytarlıq diaqnostikası üzrə milli potensialın təkmilləşdirilməsi" layihəsinin başlanması ilə əlaqədar seminar keçirib.**

AZƏRTAC xəbər verir ki, bu il iyunun 1-dən 2020-ci ilin noyabrınadək keçirilən layihənin əsas məqsədi endemik və ekzotik transsərhəd heyvan xəstəliklərinin qarşısının alınması, diaqnostikası və erkən təsbiti üçün ölkəmizin müvafiq qurumlarının potensialının artırılması və bu sahədə FAO-nun Texniki Əməkdaşlıq Proqramı çərçivəsində hökumət orqanları, beynəlxalq qurumları, özəl sektor iştirakçılarını, QHT-lər və mətbuat da daxil olmaqla maraqlı tərəfləri bir araya gətirməkdir.

Tədbirdə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli endemik və ekzotik transsərhəd heyvan xəstəliklərinin qarşısının alınması, diaqnostikası və erkən aşkar edilməsi sahəsində son illər görülən işlər barədə məlumat verib. O qeyd edib ki, layihənin əsas məqsədlərindən biri də heyvan xəstəliklərinin monitorinqini aparmaq, o cümlədən baytarlıq diaqnostikası sahəsində milli potensialın gücləndirilməsidir. Layihə ölkə ərazisində heyvan xəstəliklərinin profilaktika və diaqnostikasının düzgün aparılmasına və xəstəliklərə qarşı mübarizə metodlarının gücləndirilməsinə xidmət edir. Bununla yanaşı, regionlarda laborator diaqnostikalarının daha çevik və etibarlı olması, götürülən nümunələrin düzgün araşdırılması və laborator-ekspertiza nəticələrinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi də qarşıda duran əsas hədəflərdəndir. Sədr layihə çərçivəsində aparılan işlər zamanı xırdabuynuzlu heyvanlar arasında yayılan taun xəstəliyinə son qoyulmasının, yaylaq və qışlaq zonalarında mobil tipli sallaqxanaların təşkil olunması və regional səviyyədə təhlükəsizlik tədbirlərinin görülməsinin də əsas məsələlərdən biri olduğunu bildirib və bütün bu tədbirlər sayəsində heyvan xəstəliklərinin vaxtında aşkarlanması, xəstəlik ocaqlarının qarşısının alınması nəticəsində iqtisadi zərərlərin xeyli azalacağına əmin olduğunu ifadə edib.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak, layihənin texniki rəhbəri Eran Raizman, Qida Təhlükəsizliyi Agentliyində heyvan sağlamlığı şöbəsinin müdir müavini, heyvan xəstəlikləri üzrə risklərin və böhran vəziyyətinin idarə edilməsi sektorunun müdiri Asəf Ağayev və başqaları təqdimatla çıxış ediblər.

Qeyd olunub ki, layihə ölkədə insan və heyvan sağlamlığı, qida təhlükəsizliyi və kənd təsərrüfatı məhsullarının rəqabətliliyinin artırılması işinə layiqli töhfə verəcək. Bu məqsədlə layihə çərçivəsində Milli Referans Laboratoriyası və 6 Regional Sınaq Laboratoriyalarının əməkdaşları, eləcə də bir sıra özəl və dövlət orqanlarında fəaliyyət göstərən baytarlar təlimlərə cəlb ediləcəklər.

**AZƏRTAC**

# Üzümçülük elminin prioritet istiqamətləri

**İrəliyə doğru sürətlə addımlayan respublikamızın nail olduğu və bir neçə onilliklər bundan qabaq ağılın dərk edə bilmədiyi bugünkü möhtəşəm uğurlar cənab Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, səmərəli islahatların nəticəsində mümkün olmuşdur. Bu islahatlar Azərbaycanın bugünkü iqtisadi inkişafının ən başlıca amilidir.**

Deməк istərdik ki, məhz bu islahatların dönmədən günbəgün, aybaay uğurla həyata keçirilməsi sayəsində respublikamız müasir dünya iqtisadiyyatı sırasında şərəfli bir yerə çıxmışdır.

"İslahatların alternativi yoxdur" kəlamının dərin elmi əsaslara söykəndiyinin şahidi oluruq. Hesab edirik ki, Prezidentimizin proqram xarakterli bu kəlamı aqrar sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının qarşısında da çox gərəkli və hətta təxirəsalınmaz bir vəzifə qoyur. Bu, islahatdır - elm-istehsalat islahatı.

Məlumdur ki, üzümçülük daha gəlirli bir kənd təsərrüfatı sahəsi olmaqla bərabər, həm də çoxsaylı rəngarəng məhsulları ilə (şərab, üzüm şirələri, spirt, sirkə, marinad, mürəbbə, kişmiş, doşab, xüsusilə təzə halda istifadəsi və s.) fərqlənir.

Avropa ölkələrində (İspaniya, İtaliya, Fransa və s.) hər adambaşına təzə halda istehlak edilən üzümün miqdarı orta hesabla 25-30 kq və alkoqollu içkilərin qəbulu isə 50-55 litr təşkil edir. Azərbaycanda isə müvafiq olaraq, bu rəqəm orta hesabla 10 kq və 1,5-2 litrə bərabərdir. Hələ nəzərə alsaq ki, Azərbaycanda istehsal edilən üzümün 80%-i emala gedir, onda təzə halda əhalinin hər nəfərinə 5 kq belə yerli üzüm istehlak edilmir.

Üzümçülük dünyanın bir çox inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da prioritet təşkil edən kənd təsərrüfatı sahəsidir. Bu, keçən əsrin ikinci yarısında, yəni 1970-ci illərdən başlayaraq ümummilli liderimiz Heydər Əliyev hakimiyyətinin qızıl hərflərlə yazılan tarixi bir dövründə özünü təsdiq etmişdir.

Heydər Əliyevin uzaqgörən aqrar siyasəti və operativ rəhbərliyi sayəsində 1980-ci illərdə ölkədə üzüm əkini ilk dəfə 280 min hektara, məhsul istehsalı isə 2 milyon tona çatdırılmışdır. Başqa sözlə, respublikada üzüm plantasiyalarının hər hektarından orta hesabla 100 sentner məhsul toplanmışdır.

Ancaq bu gün ölkədə üzümçülüyün əkin sahəsinin 16 min hektar və üzüm istehsalının 150-160 min ton səviyyəsində olması əlbəttə qaneedici deyildir. Yəni, respublikada sənaye və kənd təsərrüfatı istehsalında nəzərəçarpan sürətli inkişaf dinamikası üzümçülük sahəsində hələ hiss edilmir. Bu nəticəyə ölkə Prezidentinin çıxışlarında da rast gəlmək olar.

Prezident cənab İlham Əliyev tərəfindən Strateji Yol Xəritəsində üzümçülük və şərabçılığın ənənəvi sahələrdən biri və burada kifayət qədər yüksək potensialın olduğu xüsusi vurğulanmışdır. Bu sənəddə müxtəlif sahələrin inkişafı ilə yanaşı, elmi xidmət müəssisələrinin (elmi-tədqiqat institutlarının) işinin səmərəliliyinin yüksəldilməsi istiqamətində bir sıra konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutularaq, strateji hədəflər müəyyən edilmişdir. Bu da təsadüfi deyil. Üzümçülük aqrar sektorun ən gəlirli sahəsi kimi diqqət mərkəzindən kənarda qalmamalıdır. Bu cəhətdən baxsaq, üzümçülük-şərabçılıq institutunda görülən işlərin miqyası məhz çoxsaylı problemlərlə əhatəli aparılır.

Məlumdur ki, ölkədə üzüm bitkisinin əkininə yararlı və çox vaxt başqa ərzaq bitkiləri üçün az yararlı və hətta yararsız hesab edilən boş torpaqlar, demək olar ki, bütün bölgələrdə vardır. Aqrar elminin əsas vəzifəsi də elə budur ki, hər hansı bitki növünün becərilməsi üçün ilk növbədə Azərbaycanın zəngin təbii-iqlim şəraitinin yerli spesifik xüsusiyyətlərinə uyğun elmi əsaslar hazırlayıb istehsalata təqdim etsin. Ona görə də üzüm-şərab istehsalı baxımından hazırkı vəziyyətdə bir çox amillərin hesaba alınması zərurətindən danışmaq yerinə düşərdi.

Öncə qeyd etmək lazımdır ki, Azərbaycan ÜŞETİ-nin alimləri keçən 40 il ərzində (institutun yaradılması 1976-cı ilə təsadüf edir) kifayət qədər məhsuldar işləmişlər. Çoxsaylı elmi nəticələrdən bir neçəsini göstərmək olar. Böyük tədqiqatçı alim, elmlər doktoru, institutun direktoru V.Səlimovun məlumatına görə, yaradılmış 40-a qədər hibrid formasından 5 hibrid forması (Şamaxı hədiyyəsi, İlhami, Gəncəvi, Şirəli, Qarabulağı) seçilərək, "Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti"nə verilmişdir. Bir çox perspektiv üzüm sortları Madrid şəhərində fəaliyyət göstərən "Ticarət liderləri klubu" tərəfindən XXVII Beynəlxalq Prizə, xeyli miqdarda sortlar isə Meksikanın Qvadalaxara şəhərindəki Milli Marketinq İnstitutunun "Almaz ulduz" Beynəlxalq mükafatına layiq görülmüşdür.

Alimlərimiz müxtəlif nüfuzlu Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatlarına üzv seçilmişdir. Şərabçılığın yeni texnologiyalarının habelə süfrə, desert, "Nektar" kaqor və s. tipli şərabların, meyvə və giləmeyvə likorlarının, bəhməz, abqora və təbii üzüm şirəsinin yeni texnologiyaları işlənib hazırlanmış, şampan materiallarının, konyak və arağın mövcud texnologiyası təkmilləşdirilmişdir.

İnstitutda üzüm genefondunun zənginləşdirilməsi, qorunub saxlanılması, yabanı üzüm növlərinin öyrənilməsi, becərmə texnologiyalarının yenidən işlənib hazırlanması, şərabların mövcud texnologiyasının daha da təkmilləşdirilməsi, xəstəlik və zərərvericilərə qarşı davamlı hibridlərin yaradılması istiqamətində bir problem və 8 mövzu üzrə 46 nəfər elmi işçi, o cümlədən 14 nəfər fəlsəfə doktoru, 2 nəfər elmlər doktoru fəaliyyət göstərir. Bu qədər elmi potensialı təmsil edən alimlərin elmi yaradıcılığına həsr edilmiş yüzlərlə xidməti istifadə və dərslik məqsədilə yazılan böyük həcmli kitablar, çoxsaylı təlimatlar, Azərbaycan, rus, ingilis dillərində qəzet və jurnallarda dərc edilmiş məqalələr, habelə üzümçülüyün ampeloqrafiyası və s. ədəbiyyatlar elmi ictimaiyyətə təqdim edilmişdir. Əldə edilən nəticələr, texnoloji yeniliklər istehsalatda istifadə etmək səviyyəsində hazırlanmışdır.

Bütün bunları sayıb oxuculara çatdırmaqda məqsədimiz ondan ibarətdir ki, təqdim edilən yeni texnologiyadan istehsalatda istifadə edilsə də, əksər hallarda təsərrüfatlarda əldə edilən iqtisadi səmərədən (burada alimin elmi əmək sərfinin də olduğunu qeyd etmək lazımdır) qazanılan mənfəətdən, təbii ki, alimin xəbəri olmur. Çünki istehsalçı ilə elmi müəssisə və ya elmi əməkdaş arasında müvafiq sənədləşmə və buna qarşılıqlı maraq mexanizmi yaranmadığından fermer ona lazım olan mövcud aqrotexniki qaydalardan yararlanaraq kimsəyə ehtiyac duymur. Qeyd edək ki, alimin maddi təminatı barədə müvafiq şəraitin yaranmaması illərlə formalaşan bir prosesdir. Yəni bu, yeni bir məsələ deyil. Görünür, bu barədə elmi müəssisə alimləri üçün lazımi şəraiti özü yaratmalıdır.

Başqa bir tərəfdən, çox vaxt institutun əməkdaşları tərəfindən təsərrüfat sahibinə müasir becərmə sistemlərinin tələblərinə uyğun çox məhsuldar, biotik və abiotik amillərə davamlı üzüm sortları və ya hibrid formaları təklif edilsə də, sahibkar bu sortu və ya bu hibridi əkib məhsulunu gözləmək əvəzinə, xaricdən aldığı hazır tingi əkib 3-4 ildən sonra qoyduğu sərmayəni götürməyi daha üstün tutur. Bu, təbiidir. Ən qısa yolla mənfəət əldə etmək hər bir sahibkar üçün adi istehsal qaydasıdır.

Bəs onda institut üçün daha yaxşı nə ola bilərdi?

Bu gün müstəqil iqtisadi inkişaf yolunda respublikada Dövlət proqramları çərçivəsində Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu yeni üsulla, yeni istiqamətdə işləmək istərsə yəqin ki, sovetlər dövründən qalan "bir addım irəli, iki addım geri" vəziyyətindən çıxmağa səy göstərməlidir. Başqa sözlə desək, institutun bazasında iqtisadi islahatlar aparılması, daha doğrusu, elmi-tədqiqatların istehsalatla əlaqəsinin qurulması barədə konkret addımların atılması haqqında düşünməyin lazım olduğuna qərar verilsə, daha yaxşı olardı.

Artıq uzun illərin tədqiqatları özünü aşkarlamalıdır. Yoxsa ən qiymətli tədqiqat əsəri belə, eləcə də mətbuat səhifələrində dərc edilən məqalələr, dərsliklər, monoqrafiyalar ən yaxşı halda illik hesabatlar kimi kitabxanalarda, institutun arxivində yatıb qalacaq və heç olmasa, institutun maliyyə həyatı üçün konkret olaraq müəyyən bir iqtisadi əhəmiyyət kəsb etməyəcəkdir.

Elmi-tədqiqat institutunun və yaxşı olar ki, institutların istiqamətləri nəhayət, boyat sovet tədqiqat modelindən bir qədər uzaqlaşıb zamanın və Prezidentimizin həyata keçirdiyi islahatlar siyasəti baxımından təkmilləşsin və yeni tələblər səviyyəsinə qalxsın. Prezidentin dərin elmi əsaslarla, çevik sosial-iqtisadi siyasətə söykənən "islahatlara alternativ yoxdur" kəlamı, kənd təsərrüfatı istehsalının mühüm sahəsi kimi tanınan üzümçülüklə məşğul olan elmi-tədqiqat institutunun qarşısında da elmi-tədqiqatların yenidən baxılıb işlənilməsini şərtləndirən mühüm amildir və söz yox ki, bu vəzifələr, elmi yaradıcılıq sahəsində daha kəskin və daha sərfəli islahatların icrasını tələb edir.



Biz demək olar ki, bütün sahələrdə böyük layihələrin həyata keçirilməsinin, dövlət dəstəyi ilə irimiqyaslı aqrar istehsal parklarının və digər qurumların yaradılmasının şahidi oluruq, onlara kifayət qədər vəsait sərf edilir. Bu, çox önəmli işdir, xüsusilə kənd təsərrüfatında. Ancaq illərlə fəaliyyət göstərən və birbaşa kənd təsərrüfatı məhsulunun istehsalı ilə öz fəaliyyətlərini əlaqələndirə bilməyən və nəticədə dövlətdən tam asılı olan elmi-tədqiqatların yeni, islahat yönlü tədbirlərə ehtiyacı hiss olunur. Bizi düşündürən məhz budur. Məsələn, üzümçülüyün elmi inkişafına nail olmaq üçün dövlət dəstəyi ilə ilk vaxtlar, yəni 4-5 il ərzində 10 min ton üzüm istehsalı mümkündür. Təcrübə göstərir ki, yeni aqroparkları səviyyəsində hər il 1000 hektar yeni üzümlüklər salınmaqla, cəmi 10 il ərzində müvafiq aqrotexniki mühitdə üzüm əkininin 4-cü ili azı 150-200 sentner, 5-ci ilində isə həmin sahələrdən 450-500 sentner məhsul götürmək imkanı yaranır. Yəni 1000 hektar sahəyə sərmayə qoyuluşu 4-5 ildən sonra 4 min ton üzüm məhsulu əldə edilməsi deməkdir ki, bu da üzümlüklər məhsula düşəndən sonra birinci 2 ildə qoyulan xərci tam ödəmiş olur. Ancaq bu o vaxt mümkündür ki, institutun bazasında "Elmi üzümçülük aqroparkı" və ya elm istehsalat üzümçülük-şərabçılıq birliyi yaradılsın. Bu, bir tərəfdən alimlərimizin yaradıcılıq fəaliyyəti ilə, daha doğrusu, nəzəriyyə ilə praktikanın vəhdəti şəraitində geniş elmi ixtiralar üçün, o biri tərəfdən isə yüksək məhsul əldə etmək üçün real, canlı elm-istehsalat şəraitinin yaranmasına səbəb olar.

Alimlərin elm-istehsalat fəaliyyətinə cəlb edilməsi ölkədə üzümçülüyün inkişafında elmin rolunun əsas göstəricisi olardı. Elmi-Tədqiqat İnstitutu olmaqla öz işini nümayiş etdirmək, öz fəaliyyətini geniş sahələrə köçürmək vaxtı əslində həmişə aktual olmuş və bu gün də belədir. İnstitutda işlərin öz axarı ilə getməsinə baxmayaraq nəzərdə tutulan hədəflərə doğru tədqiqatlar davam etdirilir.

İnstitutun əməkdaşları öz fəaliyyətlərini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə uyğun üzümçülükdə nəzərdə tutulan hədəflər əsasında davam etdirərək, apardıqları elmi-tədqiqat işlərinin nəticələri barədə məqalələr hazırlayır. Beynəlxalq simpoziumlarda, konfranslarda, yerli və xarici mətbuatda çıxış edirlər. Yuxarıda deyildiyi kimi, son illər müxtəlif nəşriyyatda 700-dən çox elmi məqalə, üzümçülük və şərabçılıq haqqında dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, broşüralar, bukletlər, texnoloji təlimatlar və normativ materiallar toplusu dərc olunmuşdur.

Bəzi məqamları qeyd etmək istərdik. Ancaq bunları kiməsə iradımızı bildirmək meyilindən tamamilə uzaq olmaq şərti ilə qeyd etmək istərdik ki, institutda elmi tədqiqatların informasiya təminatında və elmi potensialın mənəvi və maddi maraqlandırılması istiqamətində aidiyyəti orqanların tam dəstəyinə hələ nail ola bilməmişik. Bu, təəssüf doğurur. Keçən il bu elm mərkəzinin (institutumuzun) 40 illik yubileyi qeyd edilirdi. Düşünürdük ki, bu yubileydə alimlərimizin göstərdikləri uzun illərin elmi nəticələri aidiyyəti orqanlar tərəfindən mövcud qanunvericiliyin qaydaları çərçivəsində dəyərləndiriləcək, az-çox görülən işləri və ömrünün 30-40 ilini bu sahəyə həsr etmiş alimlərin fəaliyyəti rəhbərlik tərəfindən az da olsa, nəzərə alınacaqdır.

Burada ulu öndərimizin müdrik kəlamı yada düşür, "Mən həmişə arzu etmişəm ki, insanlara xidmətlərinə görə qiymət verilsin". Nə qədər gərəklidir, nə qədər ibrətamizdir, nə qədər səmimidir, sağlıq olsun qabaqda 50-ci il yubileyi olacaq.

Məlumdur ki, təkcə Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu deyil, Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan başqa institutlar da dövlət büdcəsi hesabına maliyyələşir. Ancaq bu elm mərkəzlərinin dövlətdən asılılığını bir qədər azaltmaq üçün müxtəlif yollar axtarmağa dəyərdi, sadəcə olaraq onilliklərlə fəaliyyət göstərən aqrar elm ocağı olan elmi-tədqiqat institutları öz elmi kontingentinin maddi marağı çərçivəsində heç bir irəliləyişə nail olmadığına son qoyub yeni istiqamət haqqında, yeni elmi islahatların keçirilməsi haqqında müəyyən qərara gəlməyi düşünməlidirlər.

Dövlət hesabına çox işləri görmək həm mümkün olmur, həm də ədalətli görünmür. Nəticə də istənilən kimi alınmır. Məsələn, üzümçülüyün elmi inkişafında maliyyə durumu onun təsərrüfat fəaliyyətinin qənaətbəxş olması üçün kifayət etmir. İnstitutun 20 ha kolleksiya bağına gedib-gəlmək çətinlik törədir. Yolu bərbad vəziyyətdə olması bir yana, nə içməli, nə də suvarma üçün su təminatı yoxdur, fəhlələrin iş şəraiti çöl-biyabanda, heç bir tikintisi olmayan bir səhradadır, texnika çatışmazlığı, antisanitar və s. bunlar hamısı birlikdə tədqiqat işlərinə və əldə edilən üzümün məhsuldarlığına öz mənfi təsirini göstərir. Baxın, institutun 12 hektar məhsuldar üzüm bağından keçən il cəmi 19 ton üzüm məhsulu mədaxil olunub, hər hektardan məhsuldarlıq 15,9 sentner təşkil etmişdir.

Müasir iqtisadiyyatın yüksəlişi müxtəlif sahələri əhatə edən sərmayə qoyuluşunun (investisiyalar və s.) intensivliyi zəminində baş verdiyi kimi, bu məsələlərin elmi-tədqiqatlara da aid edilməsini günün tələbi hesab etmək olar. Üzüm texniki bitkidir. Onun becərilməsi xırdalı-böyüklü onlarla əməliyyatlardan keçir. Ancaq bu əməliyyatlar çoxsaylı texniki vasitələrin və əl əməyinin intensiv sərfi ilə başa gəlir. Təsadüfi deyildir ki, fərdi həyətyanı sahələrdən ən yaxşı halda hər hektar hesabilə cəmi 15-20 sentner üzüm yığılır. Ancaq böyük təsərrüfatlarda (hardakı texnikadan, müalicə vasitələrindən və canlı qüvvədən səmərəli istifadə edirlər) yüksək əmək məhsuldarlığı əldə edilir. Çünki yüksək məhsuldarlıq daha təkmil texnologiyaların tətbiqi ilə birbaşa bağlıdır.

İnnovasiya və kommunikasiya texnologiyalarının və ümumən bilik və yeniliklərin sistemli irəliləyişinə nail olmaq məqsədilə böyük həcmdə sərf edilən vəsait xərcləri və elmi işlər sferasına cəlb edilən işçi qüvvəsi müasir dövrdə cəmiyyətin ümumi inkişafında aparıcı rol oynayır. Bir çox ölkələrdə bu məqsədlə milli gəlirin 2,5-3 faizi qədər vəsait ayrılır. Məhz bunun nəticəsidir ki, dünyanın hansı ölkəsində olursa-olsun, yaranan hər bir yenilik qarşılıqlı mübadilə yolu ilə qısa zaman daxilində ölkəyə gətirilir və yerli şəraitə adaptasiya olunaraq tətbiq edilir.

Yuxarıda deyildiyi kimi, kiçik sahələrdə isə işçi qüvvəsindən və texniki yeniliklərdən lazımi səviyyədə istifadə edilməməsi üzündən becərmənin keyfiyyəti müvafiq aqrotexnikaya cavab vermir və nəticədə əmək məhsuldarlığı aşağı düşür, becərməyə maddi maraq olmadığından strateji məhsulların şəxsi pay torpaqlarında inkişafına o qədər səy göstərilmir.

Bütün hallarda insanın maddi vəziyyəti çox vaxt birbaşa onun şüurunu müəyyən edir. Prezidentimizin göstərdiyi kimi, bütün islahatların aparılmasında məqsəd əhalinin maddi və mənəvi tələblərinin ödənilməsindən ibarətdir.

Beləliklə, dərin islahatların aparılması elmi-tədqiqatların inkişafında da öz rolunu oynaya bilər. Biz bunun kiçik bir zaman kəsiyi çərçivəsində nəticəsini gördük. Belə ki, 1987-ci ildə bir neçə ölkənin təcrübəsindən istifadə etmək məqsədilə Moskva, Kişinyov və Tbilisi şəhərlərində yerləşən aqrar Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutlarına səfər etdik. Onların elmi yaradıcılıq işləri ilə yaxından tanış olduq və müvafiq məlumatlar əldə etdikdən sonra qərara aldıq ki, bizim respublikadakı Üzümçülük və Şərabçılıq İnstitutunun bazasında bir analoji qurum, yəni elm-istehsalat üzümçülük birliyi yaradaq. Belə də oldu. O vaxtki Sovetlər İttifaqı Aqrar Sənaye Komitəsinin (Moskva şəhərində) rəsmi razılığını aldıqdan sonra çoxlu maneələrə baxmayaraq, nəhayət ki, institut baş idarə olmaqla onun bazasında "Şəfa" adlanan bir birlik yaradıldı. Buraya daxil olan üç sovxoz və bir zavodun timsalında Azərbaycan SSRİ Nazirlər Sovetinin 4 avqust 1987-ci il 276 saylı qərarı ilə "Şəfa" Elm-İstehsalat Üzümçülük və Şərabçılıq Birliyinin ərsəyə gəlməsinə nail olduq. Çox keçmədən sanballı və hərtərəfli elm-istehsalat göstəricilərinə malik olan yeni bir elm-istehsalat birliyi fəaliyyətə başladı.

Direktor olmaqla birliyin təşkilinə Abşeronda o vaxtki "Bir saylı üzümçülük sovxozu", Cəlilabadda "26 Bakı Komissarı" adına sovxoz, Qazaxda "Komsomol" sovxozu, Tovuzda "Sovxoz Pitomnik" və Gəncədə 1 saylı şərab zavodunun təhvil-təslimi haqqında əmr verib, adıgedən müəssisələri instituta birləşdirdik.

Demək olar ki, qısa bir müddətdə institutun bütün əməkdaşları bu təsərrüfatlarda işə başladılar və böyük ruh-yüksəkliyi ilə tədqiqat işlərinin mövzu aktuallığına yenidən baxaraq onu təkmilləşdirməyə səy göstərdilər.

Yəni bu qurum əslində alimlərin yaradıcılıq imkanlarına geniş meydan açan, elmi nəticələrin real bəhrə verəcəyinə təminat yaradan yeni, daha təkmil bir elm-istehsalat təşkilat forması idi.

Təəssüflər ki, bu elm-istehsalat birliyi çox keçmədən respublikada kadr dəyişikliyi ilə əlaqədar ləğv edildi. Respublikanın başçısı Ə.Vəzirov kənd təsərrüfatı nazirini yenilədi. O da institutun özünü də ləğv etmək haqqında əmr verdi və üzümçülüklə yanaşı, əlavə 5 institutun fəaliyyəti dayandırıldı.

Lakin elmin, mədəniyyətin, milli mənafeyin və sadəcə olaraq belə desək, bəlkə daha düzgün olar, normal təfəkkürlü bir vəzifə sahibinin köməyi ilə institut yenidən bərpa edildi. Ancaq adıgedən birliyi bərpa etmək mümkün olmadı.

Belə bir qurumun təşkili və alimlərin müəyyən mənada öz təsərrüfatlarında sərbəst fəaliyyət göstərmələri, onların elmi əmək məhsuldarlığının yüksəldilməsi, elmi nəticələrin təbliğinin sürətləndirilməsi və ən əsası, elmi, praktiki və nəzəri məsuliyyətin artırılması kimi əsas və əhəmiyyətli məqamları ortaya çıxarırdı.

Bu gün də bizə belə gəlir ki, elmi-tədqiqatla istehsalatın, nəzəriyyə ilə təcrübənin vəhdətinə nail olmağın vaxtı çatmışdır. İnstitutumuzda elmlər doktoru, institutun direktoru V.Səlimov, aqrar elmlər üzrə fəlsəfə doktorları A.Şükürov, R.Əsədullayev, Ş.Tahirov, X.Məmmədova, T.Musayev, X.Abasova, A.Nəcəfova və başqaları kimi onlarla istedadlı və səriştəli elmi kadr potensialı mövcuddur. Alimlərimizin elmi-istehsalat fəaliyyətinə cəlb edilməsi (elm-istehsalat birliyi nəzərdə tutulur) ölkədə üzümçülüyün inkişafında elmin rolunun əsas göstəricisi ola bilər. Qəti və müəyyən bir surətdə demək olar ki, üzümçülüyün elmi inkişafı yuxarıda göstərilən islahatın aparılması və sahəyə yeni elmi və istehsalat nəfəsi gətirilməsi, ölkədə ümumən üzümçülüyün sürətli inkişafının ən qısa yoludur. Çünki üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsindən yüksək gəlir verən bir texniki bitkidir.

Cənab Prezidentimiz İlham Əliyev üzüm-şərab istehsalının artırılmasına xüsusi önəm verərək göstərmişdir ki, bizim üçün ənənəvi sahələrdən biri də üzümçülükdür. Şübhə yoxdur ki, yuxarıda göstərilən elmi islahatın həyata keçirilməsi respublika üzümçülüyündə keyfiyyətcə yeni bir mərhələ olacaq və kifayət qədər elmi bilik səviyyəsi və təsərrüfatçılıq ənənəsinə malik olan üzümçü alimlərimizin yaradıcılıq potensialı üçün geniş elmi araşdırmalar meydanı açacaqdır.

Zənnimcə, "Elm istehsalat birliyi" bu vəzifənin yerinə yetirilməsi və institut əməkdaşlarının həyat şəraitinin xeyli normallaşdırılmasına gətirib çıxara bilər.

Əmin olmaq istərdik ki, ölkəmizdə inkişafın uğurlu islahatlardan keçdiyi indiki zamanda Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun yenidən təşkilinə, yəni köklü islahata ehtiyac olduğu Kənd Təsərrüfatı Nazirliyinin hörmətli yeni rəhbərliyi tərəfindən baxılacaq və məsələnin müsbət həllinə müvafiq dəstək veriləcəkdir.

**Rəhman VERDİYEV,**
**Azərbaycan Üzümçülük və Şərabçılıq ET İnstitutu,**
**İqtisad elmləri namizədi, dosent.**

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## ❑ ƏRDOĞAN: NATO “S-400”ləri ALMAĞIMIZA SEVİNMƏLİDİR



NATO xoşbəxt olmalıdır ki, Ankara “S-400” sistemlərini alıb, çünki bu, Şimali Atlantika Alyansını qüvvətləndirəcək. “Sputnik” informasiya agentliyi Türkiyə mətbuatına istinadən xəbər verib ki, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan bəyan edib.

Prezidentin sözlərinə görə, Türkiyənin “S-400” zenit-raket kompleksləri əldə etməsi NATO-ya ciddi təsir göstərəcək.

Rəcəb Tayyib Ərdoğan onu da qeyd edib ki, Türkiyə NATO üzvləri sırasında beş ən güclü ölkədən biri və alyansın regionda “ən möhkəm dayağıdır”.

Bir müddət öncə Rəcəb Tayyib Ərdoğan “S-400”lərə dair razılaşmanı Türkiyənin müasir tarixində ən əhəmiyyətli saziş adlandırmışdı.

NATO isə artıq bununla bağlı narahatlığını bildirib. Qeyd edək ki, ABŞ Türkiyənin “S-400” zenit-raket komplekslərini almasına mane olmağa çalışıb. Vaşinqton artıq Ankaranı sanksiyalarla və “F-35” qırıcılarına dair müqaviləyə xitam verəcəyi ilə təhdid edib. Buna baxmayaraq, Rusiya və Türkiyə arasında razılaşma plana uyğun olaraq yerinə yetirilir.

Bildirilir ki, iyulun 12-si “S-400”lərin Türkiyəyə tədarükü başlayıb. Rusiya istehsalı olan komplekslərin bir hissəsi Ankara vilayətində yerləşən aviabazaya çatdırılıb. Məlumatda qeyd olunur ki, tərəflər arasında bağlanan müqavilənin tam olaraq 2020-ci ilin aprel ayına qədər reallaşdırılması gözlənilir.

Eyni zamanda, vurğulanır ki, Rusiya hökuməti “S-400” komponentlərinin sürətli və fasiləsiz olaraq daşınması üçün hava körpüsü yaradıb.

Məlumata görə, ilk dəfədir ki, belə bir həcmdə texnikanın daşınmasında nəqliyyat aviasiyasından istifadə olunur.

## ❑ YUNANISTAN QUAYDONU VENESUELA PREZİDENTİ KİMİ TANIDI



Yunanıstan hakimiyyəti Xuan Quaydonu Venesuela dövlət başçısı qismində tanıyıb. “TRT” telekanalının verdiyi xəbərə görə, bu barədə ölkənin Xarici İşlər Nazirliyi məlumat yayıb.

Nazirliyin açıqlamasında deyilir: “Yunanıstan Avropa İttifaqının tutduğu ümumi mövqe çərçivəsində Venesuelada Milli Məclisin sədri Xuan Quaydonu dövlət başçısı kimi qəbul edir”.

Qeyd edək ki, illərdir ağır siyasi və iqtisadi böhranın hökm sürdüyü Venesuelada müxalifətin nəzarətindəki parlamentin sədri Xuan Quaydo, yanvarın 23-də özünü ölkənin müvəqqəti prezidenti elan edib və başda ABŞ olmaqla bir çox Latin Amerikası, eləcə də Qərb ölkələri tərəfindən dəstəklənib.

Aprelin 30-da isə Xuan Quaydo və partiyasının keçmiş lideri Leopoldo Lopez bir qrup əsgərlə Nikolas Maduro hökumətini devirmək üçün xalqı küçələrə çağırıb.

Müxaliflər onun çağırışına görə müxtəlif şəhərlərdə küçələrə axışıb. Bununla da etiraz aksiyaları bəzi bölgələrdə şiddətli hadisələrlə müşayiət olunub.

Nikolas Maduronun müqaviməti qarşısında Leopoldo Lopez əvvəlcə Çili, daha sonra İspaniyadakı səfirliyə sığınıb. Hadisələrdən sonra başladılan istintaq nəticəsində bəzi müxalif millət vəkilləri saxlanarkən bəziləri də bölgə və Avropa ölkələrinə qaçıblar.

## ❑ NAMƏLUM SƏSLƏR BRUKLİN SAKİNLƏRİNİ QORXUYA SALIB



Artıq bir neçə aydır ki, Bruklin sakinləri Nyu-Yorkda vahimə yaradan qəribə səs-küy eşidirlər. Bu, onların əhval-ruhiyyəsini tamamilə korlayır. “Sputnik” informasiya agentliyi xarici mediaya istinadən xəbər verib ki, konspirologiya nəzəriyyəsinin həvəskarları bununla son bir neçə ildə Kuba və Çində xidmət edən, sonradan səhhətlərində problemlər yaranan ABŞ diplomatlarının dedikləri arasında oxşarlıq axtarırlar.

Rayonun bu səsdən əziyyət çəkən 15 sakini artıq müvafiq dövlət idarəsinə şikayət edib. Lakin hakimiyyət orqanları hələ də bu səsin mənbəyini müəyyən edə və onu aradan qaldıra bilməyiblər.

Verilən xəbərə əsasən, şəhərdə yayılan bu xoşagəlməz səslər bruklinlilərdə sağlamlıqla bağlı müxtəlif problemlərin yaranmasına da səbəb olub. Bəziləri kəskin baş ağrılarından, bəziləri sərxoşluqdan sonrakı süstlük halına bənzəyən vəziyyətdən, üçüncülər isə tənəffüs yollarının ağırlaşmasından əziyyət çəkdiklərini bildirirlər. Həmçinin psixoloji vəziyyəti pisləşənlərin də olduğu vurğulanır.

Bununla yanaşı, Bruklin sakinlərinin sözlərinə görə, bu sirli səsdən onları hətta qapı və pəncərələri bağlamaq da xilas etmir.

Eyni zamanda, konspiroloqlar arasında belə söhbətlər də gəzir ki, hakimiyyət səs silahlarını sınaqdan keçirir və bu səslər də onun nəticəsidir.

## ❑ HƏSƏN RUHANİ ABŞ-ın SANKSİYALARINDAN SÖZ AÇIB



İran prezidenti Həsən Ruhani Amerika Birləşmiş Ştatlarının sanksiyalardan imtina edib müzakirələrə razı olacağı təqdirdə İranın da müzakirə masasının arxasına oturacağını bəyan edib. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Şimali Xorasan əyalətinə səfər edən Həsən Ruhani şəhərdəki rəsmilər ilə bir araya gəlib. Həsən Ruhani nüvə müqaviləsi və zənginləşdirilmiş uran məsələsini qanunilaşdirməyi hədəflədiklərini vurğulayıb.

“Bəziləri nüvə müqaviləsinin ABŞ-ın xeyrinə olduğunu dilə gətirirdi. Əgər belə olsaydı ABŞ niyə “Bu bizim üçün tarixin ən pis müqaviləsiydi. İran bu müqavilə ilə əlimizdən hər şeyi aldı” kimi açıqlamalar verdi?”, - deyə Həsən Ruhani bildirib.

Eyni zamanda, ABŞ-ın 12 il ərzində İranın atom bombası istehsalını və qanunlara zidd fəaliyyətlər apardığını iddia etdiyini xatırladan Həsən Ruhani Beynəlxalq Atom Enerjisi Agentliyinin bu barədə bəyanat verdiyini diqqətə çatdırıb.

İranın Rusiya və Çin ilə yaxşı münasibətlərə malik olduğuna işarə edən Həsən Ruhani Avropa İttifaqına üzv dövlətlərin nüvə sazişindəki öhdəliklərini yerinə yetirmədiklərini və ya yetirmək istəmədiyini dilə gətirib.

## ❑ FTX-nin “ALFA” BÖLMƏSİNİN BAŞÇISI İŞDƏN AZAD EDİLİB




Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) “Alfa” xüsusi təyinatlı bölməsinin başçısı Valeri Kanakin vəzifəsindən uzaqlaşdırılıb. “Report” agentliyinin verdiyi xəbərə görə, bu barədə “İnterfaks”a “Alfa” Antiterror Bölməsi Veteranlarının Beynəlxalq Assosiasiyasının fəxri prezidenti Sergey Qonçaryov məlumat verib.

Eyni zamanda, Sergey Qonçaryovun sözlərinə görə, Valeri Kanakinin işdən çıxarılması bir neçə xüsusi təyinatlının soyğunçuluq şübhəsi altında saxlanması ilə əlaqədar deyil.

Bildirilir ki, işdən çıxarıldıqdan sonra Valeri Kanakin xüsusi təyinatlıların veteranlar assosiasiyasının prezidenti seçilib.

Xatırladaq ki, iyulun 5-də məhkəmə soyğunçuluqda ittiham edilən beş FTX əməkdaşını azadlıqdan məhrum edib, ikisinə isə ev dustaqlığı cəzası verilib. O vaxt Sergey Qonçaryov təqsirləndirilən şəxslər arasında “Alfa” xüsusi təyinatlı bölməsinin üç əməkdaşının olduğunu qeyd etmişdi.

Məlumat üçün bildirək ki, sözügedən iş üzrə adıkeçən şəxslər arasında FTX-nin İqtisadi Təhlükəsizlik Xidmətinin əməkdaşları da var.

## ❑ KANADADA 612 MİN BUTULKADAN KOTTEC TİKİLİB



Kanadanın “JDComposites” şirkəti Yeni Şotlandiya (Kanada) əyalətində 612 min emal edilmiş şüşə qabdan şəhərkənarı kottec tikib. “Report” agentliyinin Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, layihə nəinki emal edilmiş qablardan icra edilməsi, həm də güclü qasırğa və küləyə davam gətirmək iqtidarında olması ilə maraq doğurur.

Şirkətin həmtəsisçilərindən biri deyib: “Məqsədimiz bütün arzu edənlər üçün sifarişlə “xəyali evlər” tikməkdən ibarət deyil. Biz kütləvi satış üçün nəzərdə tutulmuş layihələr - yığcam evlər, talvarlar, sığınacaqlar, ofislər və yataq yerləri təklif etmək istəyirik”.

Verilən xəbərə görə, tikintinin qiyməti torpaq sahəsi də daxil olmaqla 373850 dollar təşkil edir. Hazır layihəyə böyük mətbəx, qonaq otağı, üç yataq və iki vanna otaqları daxildir.

Hazırda sözügedən ev möhkəmlilik sınağından keçirilir. Mütəxəssislər onun vaxt keçdikcə və fəal istismar zamanı necə köhnəlməsini araşdırırlar. ■

---

*Baş Prokurorluq:*

# Məktəblinin vəfatı ilə əlaqədar istintaq tədbirləri davam etdirilir

**Azərbaycan Respublikasının Baş Prokurorluğu Bakıda intihar etmiş məktəbli Elina Hacıyevanın işi ilə bağlı yeni məlumat yayıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, Bakı şəhəri Səbail rayonu 162 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Elina Hacıyevanın təhsil aldığı məktəbin üçüncü mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə məktəbin direktoru Sevinc Abbasovaya Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə bütün halların istintaq qrupu tərəfindən hərtərəfli, tam və obyektiv araşdırılmasının təmin edilməsi məqsədilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mütəxəssisləri cəlb edilməklə zəruri istintaq tədbirləri həyata keçirilir.

Cinayət işinin istintaqı zamanı Elina Hacıyevanın hüquqi varisi Sevil Hüseynovanın vəkilləri tərəfindən verilmiş vəsatətlərə qanunvericiliyə uyğun baxılmaqla nəticəsi barədə mərhumun valideynləri və kütləvi informasiya vasitələri məlumatlandırılıblar. Buna baxmayaraq, zərərçəkmiş şəxsin qohumları tərəfindən cinayət işi üzrə istintaqın qeyri-obyektiv aparılması ilə bağlı mətbuat konfransı keçirilərək ibtidai araşdırmanın normal gedişatına təsir göstərilməsinə cəhd edilib.

Cinayət işi üzrə təyin edilmiş komisyon məhkəmə-tibb ekspertizasını həyata keçirən ekspertlər komissiyasının tərkibinə Sevil Hüseynovanın təklif etdiyi mütəxəssisin cəlb edilməsi barədə vəkilləri tərəfindən vəsatət istintaqa təqdim olunana qədər Səhiyyə Nazirliyinin yüksək ixtisaslı mütəxəssislərindən ibarət komissiya yaradılmaqla ekspertiza tədqiqatı aparıldığından vəsatət təmin edilməyib.

İş üzrə şahid qismində dindirilmiş Səbail Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova ilə zərərçəkmiş şəxsin hüquqi varisi Sevil Hüseynova arasında üzləşdirmə aparılmasına dair növbəti vəsatət həmin şəxslərin ifadələri arasında ziddiyyət olmadığından prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq vəsatət təmin olunmayıb.

Cinayət işinə əlavə edilmiş Təhsil Nazirliyinin və digər qurumların müvafiq vəzifəli şəxslərinin vəzifə funksiyalarını müəyyən edən normativ sənədlərin surətlərinin zərərçəkmiş şəxsin hüquqi varisinin nümayəndələrinə verilməsinə dair vəsatətləri cinayət prosessual qanunvericiliyin tələblərinə əsasən zərərçəkmiş şəxsin və ya onun hüquqi varisinin nümayəndəsinin yalnız ibtidai araşdırma qurtardığı andan işin materialları ilə tanış olmaq hüququna malik olması nəzərə alınaraq təmin edilməyib.

Eyni zamanda bildirilir ki, iş üzrə təyin edilmiş ekspertizaların rəyləri istintaq orqanına daxil olduqdan sonra zərərçəkmiş şəxsin hüquqi varisi Sevil Hüseynova vəkillərinin iştirakı ilə həmin rəylərlə tanış edilmiş və bununla bağlı narazı olmalarına dair istintaqa hər hansı vəsatətləri və şikayətləri daxil olmayıb.

Hazırda cinayət işi üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla qanunamüvafiq qərarın qəbul edilməsi təmin olunacaq.

**AZƏRTAC**

# Ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törədib qaçan sürücü tutulub

**Suraxanı rayonu ərazisində yol-nəqliyyat hadisəsi törədərək qaçan sürücü rayonun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq istintaqa cəlb edilib.**

Bakı Şəhər Baş Polis İdarəsinin və Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, iyulun 10-da saat 23 radələrində Suraxanı rayonu, Əmircan qəsəbəsi ərazisində istintaqa məlum olmayan şəxs naməlum markalı avtomobillə yolu keçmək istəyən piyada 1948-ci il təvəllüdlü Şükufə Qurbanovanı vuraraq hadisə yerindən qaçması, sonuncunun aldığı xəsarətlərdən ölməsi faktına görə Suraxanı Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd olunan yol nəqliyyat hadisəsinin “Opel” markalı 99-DG-961 dövlət qeydiyyat nişanlı avtomobilin sürücüsü - Bakı şəhər sakini, 1992-ci il təvəllüdlü Nəzərli Bəhruz Rafayel oğlu tərəfindən törədilməsində əsaslı şübhələr yarandığından, o, şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

---

TƏKRAR

## “Bakı Metropoliteni” QSC-nin “N.Nərimanov” elektrik deposu ərazisində yük həyətinin tikintisi ərazisində və “Xətai” stansiyasının qarşısındakı ərazidə abadlıq işlərinin satınalınması üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1. “N.Nərimanov” elektrik deposu ərazisində yük həyətinin tikintisi ərazisində və “Xətai” stansiyasının qarşısındakı ərazidə abadlıq işlərinin satınalınması**

**İştirak haqqı - 250 manat**

*Hesabın adı: BAKI METROPOLİTENİ QSC*
*Hesab nömrəsi (İBAN):*
*AZ98AZRT38050019440010268002 AZN*
*VÖEN 1402871431*
*Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*
*Kod: 501361*
*VÖEN: 9900006111*
*Müxbir hesabı: AZ02NABZ01350100000000022944*
*SWİFT BİK: AZRTAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*2. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 29 iyul 2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 06 avqust 2019-cu il saat 16:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 07 avqust 2019-cu il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**“BAKI METROPOLİTENİ” QSC
TENDER KOMİSSİYASI.**

---

# Elan

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Naziliyinin 11 iyul 2019-cu il tarixli 577/ü nömrəli əmri ilə Zəngilan Rayon Ekologiya və Təbii Sərvətlər İdarəsi, Qubadlı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi və Şuşa Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi ləğv edilmişdir. Yaranmış debitor və kreditor borclara dair müvafiq qaydada Ətraf Mühitin Mühafizəsi Departamentinə müraciət etməyinizi Sizdən xahiş edirik.

**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Naziliyinin
Ətraf Mühitin Mühafizəsi Departamenti**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Dövlət İqtisad Universiteti

Jurnalların çap işlərinin görülməsi məqsədi ilə kotirovka sorğusu elan edir. Sorğuda iştirak etmək istəyənlər müraciət edə bilərlər. Kotirovka sorğusunda iştirak üçün sənədlər 22 iyul 2019-cu il saat 12:00-dək qəbul olunur.

Zərflərin açılışı 2019-cu il iyul ayının 22-si saat 15:00-da əsas tədris binasında keçiriləcək.

**Əlaqələndirici şəxs:** Aqil Əhmədov
**Tel.:** (012) 492-59-09 (daxili 1127)
**Ünvan:** Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, 37-ci otaq.

---

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**
**Lot-1: Dronların satın alınması;**

Alınacaq avadanlığın spesifikasiyası

-Alınacaq dronlar çiləyici ilə, video müşahidə rejimi və çəkilmiş media faylların digər avadanlıqlara köçürülməsi üçün lazımı portlar və proqram təminatı ilə təmin edilməlidir

-Çiləyici minimum 10 - 11 litr və minimum 23 kq çəki ekvivalentində yükgötürmə qabiliyyətinə malik olmalı və istənilən gübrə, herbisid, mineral və digər kimyəvi maddələri daşımaq və çiləmək imkanı olmalıdır.

Çiləyici rejimində uçuş müddəti 13 kq-dan az olmayan yüklə 20 dəqiqədən, 23 kq-dan az olmayan yüklə 10 dəqiqədən az olmamalıdır.

-Dron GPS+GLONASS və RTK (Real Time Kinematics) naviqasiya sistemlərində işləyə bilməlidir.

-İdarəetmə nöqtəsi ilə dronun işlədiyi ərazi arasında məsafə 4 kilometrdən az olmamalıdır.

-Dron, maneələrdən qorunmaq üçün radar və üst, alt, qabaq və arxa maneə sensorlarına malik olmalıdır və toqquşmadan qorunmaq üçün qabaqlayıcı proqram təminatı ilə təchiz olunmalıdır.

-Dronun əsas detallarına minimum 1 illik zəmanət müddəti verilməlidir.

-Müşahidə kameraları olmalıdır və kameralar HD, FHD, 4K formatlı video və foto çəkilişləri dəstəkləməlidir.

-Hər bir dron 1 əsas və əlavə akkumlyatorla təchiz olunmalı və akkumlyatorların enerji yığmaları üçün lazımi avadanlıqla təchiz edilməlidirlər. Enerji dolum avadanlığı eyni vaxtda 6 akumlyatoru enerji ilə təchiz edə bilməlidir və akumlyatorların ömrünün uzadılması üçün proqram təminatına malik olmalıdır.

-Dronun marka və modeli, əlavə avadanlıqların siyahısı tender təklifində göstərilməlidir.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, malların tələb olunan müddətdə çatdırılması, iddiaçının müvafiq sahədə təcrübəsi, maliyyə vəziyyəti, mallara verilən zəmanət müddəti.

Tələb olunan mallar tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş sayda və sifariş verildikdən sonra 30 təqvim günü ərzində Bakı şəhərində təyin edilmiş ünvana təhvil verilməlidir.

Tenderdə iştirak etmək istəyənlər bir lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu (və ya əsas şərtlər toplularını) Bakı şəhəri, Üzeyir Hacıbəyov, 80 ünvanından (Hökumət Evi, 7-ci mərtəbə)

(Əlaqələndirici şəxs: Hüseyn Mehdi, Telefon: 498-79-64 Mobil : 050-204-34-34.

İştirak haqqı: Lot 1: 300 (üç yüz) manat

**Təşkilat: Kənd Təsərrüfatı Nazirliyi**
**VÖEN: 1700069791 (Kənd Təsərrüfatı Nazirliyi)**
**Hesab: AZ94CTRE00000000000002188301 (AZN) (Mərkəzi Aparat);**
**VÖEN: 1401555071 (Dövlət Xəzinədarlığı Agentliyi)**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Büdcə səviyyəsi kodu: 7**
**Büdcə təsnifatı kodu: 142340**
**Kodu: 210005**
**Müxbir hesab:**
**AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. Code: CRTEAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının son üç ildə yerinə yetirdiyi anoloji müqavilələr və anoloji sahədə fəaliyyət müddəti barədə məlumat;*

*-iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçıların müvafiq mənşə və uyğunluq sertifikatları.*

Tender təklifi Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 avqust 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə (bank təminatının təqdim edilmədiyi halda təklif açılmadan geri qaytarılacaqdır) möhürlənmiş ikiqat zərfdə 22 avqust 2019-cu il saat 18:00-dək Üzeyir Hacıbəyov, 80 (Hökumət Evi, 7-ci mərtəbə) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 avqust 2019-cu il tarixində saat 11:00-da Üzeyir Hacıbəyov, 80 ünvanında (Hökumət Evi, 7-ci mərtəbə) lot-1 üzrə daxil olduqları ardıcıllıqla açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

**TENDER KOMİSSİYASI.**

---

DTXK tərəfindən “Sabirabad Su Təchizat Tikinti” ATSC-yə Abşeron Rayon Saray Bələdiyyəsinin 16.04.2002-ci il tarixli 36 saylı qərarı ilə (50 il müddətinə 0.40 ha 16.04.2002-ci il tarixli icarə müqaviləsi) 30 aprel 2002-ci il tarixli ( JN -1791, kod: 30800086) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Nəcəfov Ramiz Qaraxan oğlunun adına 2000-ci il iyun ayının 1-də verilmiş Qarabağ Müharibəsinin veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu Yeni Həyat kəndində yerləşən fərdi yaşayış evinə mərhum Mərdanov İlyas Çigəli oğlunun adına verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Boladi kənd sakini Babayev Mirabbas Muqdad oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 558; KOD 80200028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Boladi kənd sakini Babayev Mirabbas Muqdad oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 105 A; KOD 80200028) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının qərarı ilə Lerik şəhərinin Valeh Müslümov küçəsində yerləşən və İsmayılova Bəgim Manaf qızına birgə mülkiyyət hüququ ilə məxsus olan həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 813 A; KOD 80301004) itdiyi üçün etibarsız sayılır.

Əzimov Fizuli Mürşüd oğluna məxsus VAZ-21099 markalı avtomobilin (qeydiyyat şəhadətnaməsi AA N739791) dövlət qeydiyyat nişanı (10-BP-464) itdiyi üçün etibarsız sayılır.

Cəfərov Mübariz Əli oğlunun adına Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, b.15, m.144 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti və kollektivi Lerik rayonunun sabiq icra başçısı**
**ATAXAN ŞİRİYEVİN**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

---

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az

*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Hümmət MUSAYEV**

● **Çapa imzalanmışdır**
**17.07.2019**